

# İlham Əliyev Ərdoğanla görüşdü

*Sentyabrın 15-də Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub. "Unikal" xəbər verir ki, bu barədə məlumatı Azərbaycan Prezidentinin Mətbuat xidməti yayıb. Görüş Şanxay Əməkdaşlıq Təşkilatının XXII sammiti...*

Səh.2


UNİKAL

№34 (2119) 16 sentyabr 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




Səh.9

# Ermənistanın 400-dək hərbçisi məhv edilib - DÜŞMƏNƏ SARSIDICI ZƏRBƏ



# Oqtay Əsədovun adı çoxmilyonluq tenderlər qalmaqalında...

## "Arash Medical Company"nin Səhiyyə Nazirliyindən və müəssisələrindən udduğu satınalmalarla bağlı müzakirələr səngimir

*Adı uzun müddətdir böyük məbləğləri əhatə edən tenderlərin qalibi kimi müzakirə mövzusuna çevrilən "Arash Medical Company" QSC növbəti çoxmilyonluq satınalma müqaviləsi imzalayıb. Maliyyə dəyəri 33 184.58 AZN təşkil edən müqavilədə şirkətin Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikası üçün reaktivlərin satın alması nəzərdə tutulur. "Arash Medical Company" QSC 22 iyun 2011-ci ildə dövlət qeydiyyatına alınıb. Nizamnamə kapitalı 2000 AZN olan şirkətin hüquqi ünvanı Bakı şəhəri Nəsimi rayonu, Abdulvahab Salamzadə küçəsi, ev 26-da yerləşir. MMC-nin qanuni təmsilçisi Məmmədov Kamran Abid oğludur.*

Səh.9

## "Sərhəddəki son təxribat Ermənistanın revanşizm siyasətinin təzahürüdür"



*Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü Cavid Osmanov "Unikal"a müsahibə verib. O, Ermənistan silahlı qüvvələrinin sərhəddə törətdiyi təxribatlardan, bu addımı atmaqla düşmən tərəfinin hansı niyyətdə olmasından, Rusiya Dövlət Dumasının deputatı...*

Səh.4

## Elsevər Ağayeva növbəti "qara xəbər"...



*Yola salmaq üzrə olduğumuz həftə açıqlanan rəsmi məlumata görə, 2022-ci ilin 1-31 avqust müddətində ümumilikdə 52 aptekdə monitorinq keçirilib. Analitik Ekspertiza Mərkəzindən verilən xəbərdə bildirilib ki, yoxlama nəticəsində 6 adda, 19 qutu dərman vasitəsi müsadirə edilib.*

Səh.5

## Uşaq və gənclərin milli ruhda tərbiyəsi məktəbdən başlamalıdır



*Uşaqlar, gənclər ölkənin gələcəyi olduğundan, onların milli ruhda tərbiyəsi vacib amildir. Ordumuz nə qədər qüdrətli, hazırlıqlı olsa da, orduda vətənpərvərlik hissi yüksək olan şəxslərin xidmət etməsi dövlətin ərazi bütövlüyünün qorunması baxımından əhəmiyyətlidir. Sentyabrın 12-dən 13-ə keçən gecə erməni təxribatı nəticəsində 71 hərbçimizin...*

Səh.11

# Türk ulduzlardan Azərbaycana başsağlığı

***Türkiyənin məşhur simaları Ermənistan təxribatı nəticəsində şəhid olan Azərbaycan Silahlı Qüvvələrinin hərbçiləri ilə bağlı paylaşım edib.***

"Unikal" olay-a istinadən yazır ki, pop ulduz Demet Akalın instaqramın hekayə bölməsində "Azərbaycan. 50 şəhid. Başınız sağ olsun" şərhini paylaşıb.

Müğənni Özcan Deniz isə paylşamında bu sözləri qeyd edib:

"Can Azərbaycan, başın sağ olsun. Acını paylaşırıq və şəhidlərimizə rəhmət, Azərbaycan xalqına səbr diləyirik".

Sosial şəbəkələrdə paylaşdığı videolarla populyarlaşan, müğənni və aparıcı Oğuzhan Uğur bayrağımızı paylaşaraq ölkəmizə dəstək olub.

Aktyor Mert Öcal "Başınız sağ olsun, Azərbaycan" şərhini hekayə bölməsində yerləşdirib.

Məşhur komediya aktyoru Şahan Gökbakarda bayrağımızın fotosunu ürək emojisi ilə paylaşıb.



# Röya Ayxan: "Belə dövrdə mahnı oxuya, əylənə bilmərəm"



***Xalq artisti Röya Ayxan sentyabrda verməyi planlaşdırdığı konsertlərini təxirə salıb.***

Müğənni sərhəddəki gərginlik və Azərbaycan ordusunun 50 şəhid verməsi ilə əlaqədar bu cür addım atdığını bildirib. Röya əlavə edib ki, sentyabrın 18-də İstanbulda və 22-23-24-25-də Bakı Konqres Mərkəzində planlaşdırılan konsertləri qeyri-müəyyən vaxtadək təxirə salınıb:

"Hadisələri mən də izləyirəm, çox təsirlənmişəm. Balalarımız, oğullarımız şəhid oldu. Hər bir ananın acısı bizim də acımızdır. Məni də öz yanınızda bilin. Kədərinizi hiss edirəm. İstanbul və Bakı konsertlərimi təxirə saldım. Belə dövrdə mahnı oxuya, əylənə bilmərəm.

İstədim ki, bu qərarımdan xəbəriniz olsun. Xalqımın yanındayam, dərdinə şərikəm. Allah şəhidlərimizə rəhmət eləsin, yaralı əsgərlərimiz şəfa tapsın".

# Nəsrin Cavadzadədən Azərbaycana dəstək mesajı

***Türkiyədə yaşayan məşhur azərbaycanlı aktrisa Nəsrin Cavadzadə Ermənistanın Azərbaycana qarşı sərhəddə törətdiyi təxribatlarla bağlı paylaşım edib.***

"Unikal" bizim media-ya istinadən xəbər verir ki, aktrisa bir neçə ay əvvəl Bakıda olduğu zaman Heydər Əliyev Mərkəzinin qarşısında çəkdirdiyi fotosunu sosial şəbəkə hesabında paylaşaraq, Azərbaycana dəstək mesajını yazıb.

"Qəlbim Azərbaycanda, Azərbaycanla", - deyə N.Cavadzadə bildirib.



# Aybəniz Haşımova: "Sənin kimi ağlayan olmayacaq"

***Əməkdar artist Aybəniz Haşımova Ermənistan tərəfinin təxribatı nəticəsində şəhid olmuş hərbçi Səbuhi Əhmədovla bağlı ürəkdağlayan paylaşım edib.***

"Unikal" bizim media-ya istinadən xəbər verir ki, şəhidin fotosunu sosial şəbəkə hesabında yayımlayan sənətçi fikirlərini belə ifadə edib.

"Sos kəndində böyüyüb bu balamız. Nə anası, nə də ki, atası var. Allahdan yox, bəndələrdən qurma bir ailəsi var idi. Bir necə atılmışlardan qurulan bacı, qardaş və onlara baxacaq qadın, hansı ki, o körpələr ona ana deyib çağırırdılar.

Dəfələrlə kənardan müşahidə etmişəm və öz-özümə sizi buralara atıb gedən anaya, ataya nə deyəsən ki, adamın ürəyi soyuya demişəm. Həmin o, vaxtilə atdığın oğul şəhid olub. İndi gəl heç olmuya balanı bağrına bas ağla, ey qadın. Axı, indi onu sənin kimi ağlayan olmayacaq.

Dünən 50 şəhidin xəbəri qəlbimi param-parca edib. Allaha ağır getməsin əllərim yanıma düşüb, heyim qalmayıb.

Qeyd edək ki, Səbuhi Əhmədov bu gün Bakıda, İkinci Fəxri xiyabanda dəfn edilib.





## Rasim Məmmədovun 70 milyonluq əmlakına həbs qoyuldu

***"Baku Steel Company"nin həbsdə olan sabiq rəhbəri Rasim Məmmədovun cinayət işi ilə bağlı əmlakları üzərinə həbs qoyulub.***

"Unikal" xəbər verir ki, Apa həmin əmlakların siyahısını əldə edib. Bakının Səbail rayonu, Badamdar qəsəbəsində yerləşən Bakı Oksford Məktəbi, bir zavod, bir neçə fərdi yaşayış evi və bağ evinin üzərinə həbs qoyulub. Bu əmlakların qiyməti ümumilikdə 70 milyon manat civarındadır.

Bakı Oksford Məktəbinin təsisçisi Rasim Məmmədovun həyat yoldaşı Mehriban Məmmədovadır.

Üzərinə həbs qoyulmuş əmlakların təxminən 30 milyon manat təşkil edən hissəsinin Rasim Məmmədovun qohumlarının adına rəsmiləşdirildiyi bildirilir. Bununla bağlı onlar ilk prosesdə vəkil vasitəsilə məhkəmədə vəsatət qaldırıb, müstəqil tələb irəli sürən üçüncü tərəf kimi tanınmalarını istəyiblər. Məhkəmə vəsatəti baxılmamış saxlayıb.

Qeyd edək ki, Rasim Məmmədov Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs olunub. O, Cinayət Məcəlləsinin 179.4 (mənimsəmə və ya israfetmə, xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 193.3.2 (xüsusilə külli miqdarda gəlir əldə etməklə yalan sahibkarlıq), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, ağır nəticələrə səbəb olduqda) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham olunur.

Cinayət işi Bakı Ağır Cinayətlər Məhkəməsində araşdırılır.

## "Sülh sazişi ilə bağlı işlər dayanmayıb" - Zaxarova

***Sərhəddəki gərginliyə baxmayaraq, Ermənistan və Azərbaycan arasında sülh sazişinin hazırlanması ilə bağlı işlər dayanmayıb.***

"Unikal" TASS-a istinadən xəbər verir ki, bunu Rusiya XİN-in rəsmi sözçüsü Mariya Zaxarova jurnalistlərə açıqlamasında deyib.

Xanım sözçüsü deyib ki, Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında imzalanan üçtərəfli bəyanatlar regiondakı nizamlanmanın əsasını təşkil edir.

"Azərbaycan-Ermənistan sərhədində baş verən gərginliklə bağlı Rusiya tərəfinin mövqeyi Rusiya XİN-in bəyanatında öz əksini tapıb. Daha ətraflı mövqe isə Rusiya XİN-in dördüncü MDB departamentinin rəisi Denis Qonçarın müsahibəsində öz əksini tapıb. Təəssüflər olsun ki, atəşkəs haqqında birinci razılaşmadan sonra atışmalar olub. Dünən yeni razılıq əldə olundu. Ümid edirik ki, bu razılığa riayət olunacaq. Bir daha tərəfləri təmkinli olmağa və bütün problemləri siyasi-diplomatik yolla həll etməyə çağırırıq", - o, açıqlamasında qeyd edib.

***Ağarza***

# Oqtay Əsədovun adı çoxmilyonluq tenderlər qalmaqalında...

## "Arash Medical Company"nin Səhiyyə Nazirliyindən və müəssisələrindən udduğu satınalmalarla bağlı müzakirələr səngimir

***Adı uzun müddətdir böyük məbləğləri əhatə edən tenderlərin qalibi kimi müzakirə mövzusuna çevrilən "Arash Medical Company" QSC növbəti çoxmilyonluq- satınalma müqaviləsi imzalayıb. Maliyyə dəyəri 33 184.58 AZN təşkil edən müqavilədə şirkətin Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikası üçün reaktivlərin satın alması nəzərdə tutulur.***

"Arash Medical Company" QSC 22 iyun 2011-ci ildə dövlət qeydiyyatına alınıb. Nizamnamə kapitalı 2000 AZN olan şirkətin hüquqi ünvanı Bakı şəhəri Nəsimi rayonu, Abdulvahab Salamzadə küçəsi, ev 26-da yerləşir. MMC-nin qanuni təmsilçisi Məmmədov Kamran Abid oğludur. Qaynarinfo bu barədə bildirib ki, Dövlət Vergi Xidmətinin reyestr məlumatlarında "Arash Medical Company" QSC-nin 2011-ci ildə qeydiyyata alındığı göstərilsə də, mediada dərc edilən informasiyalarda şirkətin 1994-cü ildən fəaliyyət göstərdiyi qeyd edilir. QSC-nin vebsəhifəsində isə şirkətin 25 ildir fəaliyyət göstərdiyi bildirilir. Belə anlaşılır ki, "Arash Medical Company" QSC uzun müddət vergidə qeydiyyatda olmayıb. Başqa bir ehtimal isə ondan ibarətdir ki, şirkət 2011-ci ildə təşkilati-hüquqi formasını dəyişib.

Bəzi iddialara görə, şirkətin sahibi Kamran Məmmədov deyil. İddia edilir ki, QSC əslində Milli Məclisin keçmiş spikeri Oqtay Əsədovun qardaşı oğlu Cavid Əsədova məxsusdur. Məlumat bu günə qədər təkzib olunmayıb. Maraqlıdır ki, şirkət rəhbərliyi bu səhmdar cəmiyyətin əslində qeyri-rəsmi şəkildə sabiq spikerə məxsusluğu barədə ortaya atılan iddiaları da sükutla qarşılayıb və bu haqda hər hansı açıqlama vermək ehtiyacı hiss etməyib.

Araşdırmalardan o da aydınlaşır ki, "Arash Medical Company" QSC daha çox Səhiyyə Nazirliyinin tenderlərinin qalibi olur. Hətta bəzi aparıcı KİV-lərin müxtəlif vaxtlarda hazırladıqları materiallarda QSC ilə nazirliyin işbirliyi barəsində şübhəli məqamların olduğu bildirilir.

Məsələn, 2019-cu ilin mayında Səhiyyə Nazirliyi ölkənin bölgələrindəki xəstəxanaların təchizatı üçün tibbi avadanlıq alınması üzrə bir gündə 4 müqavilə imzaladığı aydınlaşıb. Bu barədə dövlət satınalmaları reyestrində bildirilib.

Mayın 27-də imzalanan həmin müqavilələrin hamısı "Arash Medical Company" şirkətinə verilib. Müqavilələrin ümumi həcmi isə 6 milyon 116 min manat olub. Şərtlərə əsasən isə işlər Qazax Mərkəzi Rayon Xəstəxanası, Gəncə və Şəki psixiatriya xəstəxanaları, Şəmkir rayon Kür qəsəbə xəstəxanasında həyata keçirilməli idi.

Maraqlıdır ki, ondan cəmi bir həftə öncə - mayın 20-də Səhiyyə Nazirliyi Bakıdakı iki tibb müəssisəsinin tibbi avadanlıqlarla təchizatı üzrə də "Arash Medical Company" ilə iki müqavilə imzalayıb. Həmin müqavilələr əsasında alınmış avadanlığın ümumi məbləği 5 milyon 726 min manat (3 milyon 368,2 min dollar) təşkil edirdi. Belə çıxırdı ki, bu, təkcə may ayı üzrə bağlanmış 2-ci sövdələşmədir. Və bütün müqavilələrin ümumi dəyəri 12 milyon manata yaxındır!

O da maraqlıdır ki, həmin vaxt artıq 10 ilə yaxındır sözügedən şirkətin Səhiyyə Nazirliyi tərəfindən keçirilən tenderlərin dəyişilməz qaliblərindən biri olduğu aydınlaşmışdı. Üstəlik, qısa araşdırma göstərmişdi ki, adıçəkilən şirkət sözügedən illər ərzində təkcə Səhiyyə Nazirliyi xəttilə 100 milyon dollarla ölçülən tenderləri udmuşdu! Bu isə istər cəmiyyətdə, istərsə də mediada çoxsaylı sualların ortaya çıxmasına səbəb olmuş, satınalmalarla bağlı müsabiqələrin obyektivliyi, şəffaflığı yönündə şübhələrin yaranmasına gətirib çıxarmışdı.

Lakin belə şübhələrə baxmayaraq son 3 ildə adıçəkilən şirkət Səhiyyə Nazirliyindən iri məbləğlərlə ifadə olunan tenderlər udmağa davam edib. Məsələn, ötən il adıçəkilən nazirlik tərəfindən eyni vaxtda keçirilən üç tender müsabiqəsinin qalibi məhz barəsində danışılan QSC olmuşdu. Belə ki, şirkət nazirliyin sifarişi əsasında Qəbələ Rayon Mərkəzi Xəstəxanasını, 2 nömrəli Sumqayıt Şəhər Xəstəxanasının yeni binasını və Bakı şəhərindəki 2 nömrəli Doğum evini tibbi avadanlıqlarla təchiz etməli, buna görə isə ümumilikdə 20 milyon manata yaxın (19 milyon 426 min 498 manat 60 qəpik) ödəniş almalı idi.



Mediada uzun illərdən bəridir O.Əsədova aid edilən şirkətin Səhiyyə Nazirliyindən ümumi məbləği yüz milyonlarla manat dəyərində ifadə edilən tenderlərin udmasının şübhə ilə qarşılanmasına bu qurumdan da hər hansı reaksiya verilməyib.

"Arash Medical Company" fəaliyyət miqyasına görə Azərbaycanın ən qabaqcıl şirkətlərindən biri olduğu və tibbi avadanlıqlar üzrə dünyanın 40-a yaxın aparıcı istehsalçıları ilə sıx əməkdaşlıq etdiyi bildirilir. Şirkət ABŞ-ın "Alcon", "Armstrong Medical", "Hill-Rom"; Almaniyanın "Hettich", "Carl Storz", "Leisegang", "Metrax", "Riester", "Trilux", "Weinmann"; C. Koreyanın "Medison", "Bionet", İtaliyanın "Cardioline", "FL Medical", "Fazzini", "Rimsa"; İsveçrənin "Belimed"; Türkiyənin "Hitas", "Nüve", "Varitex"; Yaponiyanın "Toshiba", "Olympus", "Fuji" və s. istehsalçılarını Azərbaycanda birbaşa təmsilçisi, eyni zamanda Azərbaycanın səhiyyə ocaqları ilə sıx əməkdaşlıq şəraitindədir, bir neçə xəstəxana və klinikaların hər növ tibbi avadanlıqlar və ləvazimatlarla təchizatçısıdır.

***Toğrul Əliyev***

# Ermənistan rəhbərliyi sülhdən yayınmaq üçün hər yola əl atır

***Məlum olduğu kimi, Ermənistan Baş naziri Nikol Paşinyan Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənddə keçiriləcək sammitində iştirak etmədi. Ermənistan hökumətinin mətbuat xidmətindən verilən açıqlamada bildirilib ki, Paşinyan ölkədəki proseslər səbəbi ilə sammitə qatılmamaq qərarına gəlib.***

Amma sammitdə iştirak etməməsinin səbəblərinin başqa olduğu hər kəsə aydındır. Məlumdur ki, həmin sammitdə Putin-Ərdoğan-Əliyev-Paşinyan görüşü planlaşdırılırdı. Ermənistan baş naziri sərhəddə törətdikləri təxribatdan sonra belə bir görüşdə iştirak etmənin onu zor duruma soxacağını yaxşı başa düşür. Elə bu səbəbdən də sülhdən yayınma üçün təmaslardan kənar durmağın və təxribatları davam etdirilməsinin çıxış yolu olduğu qənaətinə gəlib. Paşinyan eyni zamanda bəzi Qərb dairələrindən aldığı siyasi-diplomatik tapşırıq əsasında belə bir mövqedən çıxış edir.

Ədalət Partiyasının sədr müavini, politoloq Elxan Şükürlü “Unikal”a açıqlamasında deyib ki, Ermənistan rəhbərliyinin sülhdən yayınma və təxribatları davam etdirmə niyyəti gözlənilən idi: “Gözləntilərimiz özünü doğrultdu: Paşinyan Şanxay Əməkdaşlıq Təşkilatının Özbəkistanda keçiriləcək sammitinə qatılmaqdan imtina etdi. Beləliklə, sentyabrın 12 və 13-də sərhədlərimizdəki erməni təxribatlarının məhz bu sammit ərəfəsində planlaşdırılan Putin-Ərdoğan-Əliyev-Paşinyan görüşünü və bu görüşdə əldə ediləcək razılaşmanı pozmaq məqsədilə elə Paşinyan komandasının özü tərəfindən təşkil edildiyi aydın olur. Xatırladaq ki, Şanxay Əməkdaşlıq Təşkilatı ən ciddi anti-Qərb blokudur və bu blokun sammitində Putin-Ərdoğan-Əliyev-Paşinyan görüşünün təşkili və üstəlik də, bu görüşdə Azərbaycanla Ermənistan arasında sülh razılaşmasının əldə edilməsi istiqamətində hər hansı sənədin imzalanması 10 noyabr 2020-ci il sənədinə daha geniş auditoriyada legitimlik qazandırmaqla, Cənubi Qafqaza təsir imkanlarını itirməməyə çalışan ABŞ və Avropa İttifaqının mövqelərinə də zərbə olacaqdı”.

Politoloqun fikrincə, indi aydın olur ki, Putinlə Vladivostokda danışan Paşinyan ŞƏT sammitində iştiraka və dördlü görüşün keçirilməsinə razılıq versə də, ABŞ Dövlət Departamentinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Rikerin gətirdiyi mesajdan, verdiyi vədlərdən sonra Putinlə razılaşmanı pozmaq məcburiyyətində qalıb və çıxış yolu kimi, Azərbaycanla sərhədlərimizdə təxribat törətməyə əl atıb: “Şübhəsiz ki, Paşinyanın Qərbin açıq dəstəyi və təhrikilə Azərbaycan və Rusiya ilə razılaşmanı pozması, sülhdən yayınması onu yenidən Rusiya-Türkiyə-Azərbaycan üçlüsünün təzyiqlərinə məruz qoyacaq. Ehtimal ki, Qərb Paşinyanı qorumaq üçün həm beynəlxalq təşkilatlar vasitəsilə, həm də Azərbaycandakı şəbəkəsini hərəkətə gətirməklə hərbi əməliyyatları davam etdirməyimizin qarşısını almağa çalışacaq”.

”Ermənistan silahlı qüvvələri sərhəddə təxribat törətdikdən sonra bu ölkənin baş naziri Nikol Paşinyanın addımları bir məqsədə yönəlib. Belə ki, o, bu addımla səs-küy yaradıb, həmin ərazilərə hansısa beynəlxalq təşkilatları cəlb etmək istəyir”. Bunu ”Unikal”a açıqlamasında keçmiş xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov deyib. Eks-nazir bildirib ki, Paşinyan Rusiya tərəfindən onun addımlarına real dəstək verilmədiyini gördü:

”Ona görə də, Paşinyan çalışır ki, sərhəddə hansısa formada beynəlxalq müşahidəçiləri və ya vasitəçiləri yerləşdirsin. Bundan sonra isə onların arxasından Qarabağa aid təxribat siyasətini davam etdirsin. O, Azərbaycandan qorxur və başa düşür ki, uzun müddət idi onları Rusiya dəstəkləyirdi. Görünür indi Rusiya bunu ya istəmir, ya da Ukraynadakı müharibəyə görə imkanı yoxdur. Nikol Paşinyan isə Rusiyanı əvəzləmək üçün belə addımlar atır”.

Paşinyanın Özbəkistanın Səmərqənd şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv ölkələrin Sammitinə qatılmamasına gəlincə, T.Zülfüqarov bildirib ki, onun həmin sammitdə istədiyi məqsədlərə nail olmaq imkanı yoxdur.

”Bu baxımdan, özünü Qərb tərəfə göstərmək üçün həmin tədbirə getməyib. Ümidi Fransaya və digər ölkələrədir ki, bəlkə bu addımına görə Ermənistanı dəstəkləyələr”.

Politoloq İlyas Hüseynov bizimlə söhbətində deyib ki, istər Paşinyanın Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənddə keçiriləcək sammitində iştirak etməməsi, istər son bəyanatları göstərir ki, onlar sülh prosesini uzatmaq istəyirlər: “Əslində Ermənistanın baş naziri Nikol Paşinyan çıxışında sənəd haqqında bəyan etmədən, heç bir fikir bildirmədən kapitulyasiya aktında olduğu kimi sözügedən sənədə səssiz, qaranlıq otaqda imza ata bilərdi. Lakin bunu deməklə o zatən bilirdi ki, xalqı ayağa qaldıracaq. Paşinyan xalqını yaxşı tanıyır. Əslində xalqı özünə qalxan edərək imzadan yayınmaq üçün imitasiya edir. Çox hiyləgərdir, çox qarışıq gedişlər edir. Geosiyasi vektorlar arasında qalmaq xoşuna gəlir və bu oyunu artıq mənimsəyib. Hibrid texnologiyaları, kütlə manipulyasiyasını öyrəndiyini və bu istiqamətdə yaxşı təlimlər keçdiyini biruzə verir. Küçədən hakimiyyətə gəlib və küçə qaydaları ilə davam edir. Amma deyəsən küçə və prospektlər də bitir. Qarşıda böyük dalandır”.



Milli Xalq Cəbhəsi Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə də qeyd edib ki, Ermənistan rəhbərliyinin son addımları bir daha sübüt edir ki, onlar öz xoşları ilə sülhə hazır deyillər: “Mən daima erməni cəmiyyətinin sülhə hazır olmadığını efirlərdə qeyd etmişəm. Erməni xalqı N. Paşinyana müharibədən sonra ona görə səs verdi ki, məğlub olmuşdular. Bu gün Ermənistan parlamentinin qarşısında izdiham bir daha göstərir ki, erməni cəmiyyəti Azərbaycanla sülh şəraitində yaşamaq istəmir və revanşistdi. Təbii ki, bu etirazların arxasında revanşistlər durur. Ermənistan cəmiyyətini reallıqla barışdırmaq üçün hərbi əməliyyatlar davam etməlidir. Bu toplum sülh istəmir. Heç Qarabağda ermənilər də sülh istəmir. Demək, onlarla yalnız güc dilində danışmaq zəruridir”.

***Z.Məmmədli***



## “İctimai rəyi çaşdırmaq olmaz” - Ceyhun Məmmədov

***“Sentyabrın 12-də Ermənistan silahlı qüvvələri Azərbaycanla sərhəddə növbəti təxribat törətdi. Azərbaycan ordusu böyük qətiyyət nümayiş etdirərək hücumların qarşısını aldı. Nəticədə Azərbaycan tərəfi də ciddi itkilər verdi. Azərbaycan xalqı dərin kədər içində, böyük səbir və təmkin nümayiş etdirərək şəhidlərini son mənzilə yola saldı”.***

Bu fikirləri “Unikal”a açıqlamasında Milli Məclisin Deputatı Ceeyhun Məmmədov səsləndirib. Onun sözlərinə görə, belə ağır gündə xalqımızın ən çox birlik və həmrəyliyə ehtiyacı var: “Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycan xalqı dərin hüzn və kədər içində, ləyaqətlə şəhidlərini yola salarkən hər zaman olduğu kimi, bir qrup özünü müxalifət adlandıran şəxs “ənənəyə” sadiq qalaraq yaranmış “fürsətdən” iqtidarın və Azərbaycan Prezidentinin əleyhinə istifadə etməyə çalışdılar. Hətta bəziləri daha da irəli gedərək Azərbaycan dövlətini Ermənistana təcavüzdə ittiham etdilər. Məsələnin tam mahiyyətinə varmadan, dövlətçilik maraqlarını nəzərə almadan səylə ictimai rəyi çaşdırmağa, yanlış istiqamətə yönləndirməyə çalışdılar. Bütün dünyada dövlətin ağır və çətin günündə müxalifət dövlətçiliyi, dövlət maraqlarını dəstəkləyir. Təəssüf ki, hər zaman olduğu kimi, bu dəfə də özünü müxalifət adlandıran bəzi müxalif qruplar erməni dəyirmanına su tökmək yolu seçdilər. Belə olduğu təqdirdə sual yaranır. Azərbaycan nə etməli idi? Ermənilərin son təxribatlarına cavab verməməli idi? Əgər düşmən təcavüz edirsə itkilərimizin olması qaçılmazdır. Dövlət bütün zəruri addımları atıb, atacaq, heç kim narahat olmasın. Bizim üzərimizə düşən dövlətimizin yanında olmaq və dövlətçiliyimizi dəstəkləməkdir”.

Millət vəkili onu da qeyd edib ki, Müdafiə Nazirliyi davamlı olaraq Azərbaycan ictimaiyyətini cəbhədə baş verənlər və itkilərimiz barədə məlumatlandırır. Dövlətimiz şəhidlərimizin böyük qürur və ləyaqətlə yola salınması üçün bütün zəruri tədbirləri həyata keçirir: “İndi bizim təxribatlardan, ictimai rəyi çaşdırmaqdan, hakimiyyətin ünvanına əsassız ittihamlar səsləndirməkdən daha çox səbirli və təmkinli olmağa, birlik və həmrəyliyimizi qorumağa ehtiyacımız var. Kimsə Vətənə xidmət istəyirsə həmin yol buradan keçir. Əgər kin və qərəziniz faydalı olmağa imkan vermirsə, ən azından görülən işlərə mane olmayın. Əgər kimsə düşünürsə ki, həqiqətləri inkar etməklə, ağa qara deməklə hakimiyyəti gözdən salmağa, görülən işlərə kölgə salmağa nail olacaq yanılır. Azərbaycan xalqı hər şeyi gözəl bilir, düzü əyridən seçməyi yaxşı bacarır. Belə səhv düşünən və yanlış yolda olan insanlara xalqımız hər zaman layiqli qiymətini verib və bundan sonra da verəcək.

Hazırkı həssas məqamda xalqımızın üzərinə düşən əsas vəzifə, gözüaçıq olmaq, təxribatlara uymamaq, birlik və həmrəyliyimizi qorumaqdır. Daxili və xarici düşmənlərimizin çirkin məqsədlərinə nail olmaması üçün səylə çalışmaq hər birimizin vəzifəsidir”.

***Hüseyn***

# İlham Əliyev Ərdoğanla görüşdü



***Sentyabrın 15-də Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.***

"Unikal" xəbər verir ki, bu barədə məlumatı Azərbaycan Prezidentinin Mətbuat xidməti yayıb.

Görüş Şanxay Əməkdaşlıq Təşkilatının XXII sammiti çərçivəsində Özbəkistanın Səmərqənd şəhərində baş tutub.

# İlham Əliyev Putinlə görüşəcək

***Kreml KTMT qrupunun bu həftə Ermənistan-Azərbaycan sərhədinə gələcəyinə ümid edir. Bu, Rusiya və Azərbaycan prezidentlərinin görüşündə müzakirə olunacaq.***

"Unikal" xəbər verir ki, bunu Kremlin mətbuat katibi Dmitri Peskov jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, Rusiya Federasiyasının rəhbəri Vladimir Putinlə Azərbaycan



Respublikasının Prezidenti İlham Əliyev arasında sabah görüş baş tutacaq.

"Bu həftə ümid edirik ki, KTMT-nin baş katibi Stanislav Zassın rəhbərlik etdiyi təftiş qrupu sərhədə gedəcək və o, KTMT dövlət başçıları üçün hesabat hazırlayacaq. Sabah Səmərqənddə isə prezidentlə (Vladimir Putin - red.) İlham Əliyev arasında görüş olacaq, burada da təbii ki, gündəmin əsas mövzuları müzakirə olunacaq" - deyə o, jurnalistlərə bildirib.

***Gülayə Mecid***

# Ermənistan Milli Təhlükəsizlik Şurasının iclası keçirildi



***İrəvanda Baş nazir Nikol Paşinyanın rəhbərliyi ilə Təhlükəsizlik Şurasının genişləndirilmiş iclası keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan hökumətinin mətbuat xidməti bildirib.

İclasda Ermənistan prezidenti Vaaqn Xaçaturyan və digər şəxslər iştirak edib. Toplantıda Azərbaycanla Ermənistan sərhədindəki vəziyyət müzakirə edilib.

***Murad***

# Ermənistanın 400-dək hərbçisi məhv edilib - DÜŞMƏNƏ SARSIDICI ZƏRBƏ



***Azərbaycan Ordusunun həyata keçirdiyi qətiyyətli cavab tədbirləri zamanı Ermənistanın təxribatının qarşısı alınıb, bölmələrimiz tərəfindən strateji əhəmiyyətə malik bir sıra hakim yüksəkliklər nəzarətə götürülüb.***

"Unikal" xəbər verir ki, əməliyyat çərçivəsində Ermənistan silahlı qüvvələrinə məxsus Gorus rayonu və Novruzlu (Kaxnut) yaşayış məntəqəsi istiqamətlərində 2 ədəd S-300 5N63 İYR radarı, 3 ədəd S-300 5P85 BQ buraxıcı qurğusu, Basarkeçər rayonu və Aşağı Qaranlıq (Martuni) yaşayış məntəqəsi istiqamətlərində isə 2 ədəd S-125 RTS-125 radarı, eləcə də xeyli sayda canlı qüvvəsi məhv edilib və yaralılarıı var.

Ümumilikdə qarşı tərəfin 53 döyüş mövqeyi, 2 minaatan atəş mövqeyi, xeyli sayda hakim yüksəkliklər nəzarətə götürülüb, Zod istiqamətində yerləşən 538-ci əlahiddə dağatıcı briqadasının daimi dislokasiya məntəqəsi, 2 ədəd S-300 və 2 ədəd S-125 divizionlarının start mövqeləri darmadağın edilib.

Ermənistanın təxribat törətdiyi istiqamətdə Hava Hücumundan Müdafiə (HHM) sistemi çökdürülüb.

Qarşı tərəfə məxsus 1 ədəd radioelektron mübarizə (REM) vasitəsi JİTEL, 20-dək ədəd top və haubitsa, 10-dan çox minaatan və 6-sı sursatla dolu olmaqla ümumilikdə 32 ədəd avtomobil texnikası sıradan çıxarılıb.

Bundan başqa, Ermənistan silahlı qüvvələrinin bölmələrinə məxsus 1-i sursatla dolu olmaqla 3 ədəd KAMAZ, 1 ədəd URAL və 1 ədəd UAZ-3962 markalı avtomobil və 3 ədəd mühəndis texnikası, 3 ədəd minaatan, 1 ədəd "İqla-S" daşınan zenit-raket kompleksi, 135 ədəd müxtəlif avtomat, pulemyot, qumbaraatan, 20 qutu əl qumbarası, 2 ədəd optik cihaz, 2 ədəd rabitə vasitəsi və 14500-dən çox döyüş sursatı qənimət olaraq ələ keçirilib.

"Ermənistan silahlı qüvvələrinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində bölmələrimizə qarşı törətdiyi təxribat nəticəsində baş verən döyüşlərdə qarşı tərəfin 400-dək hərbiçisi məhv edilib".

Bunu "Unikal"a hərbi ekspert Ədalət Verdiyev deyib. Onun sözlərinə görə, erməni hərbçilərin çoxunun meyiti hələ də döyüş meydanlarında qaldığına üçün Ermənistan tərəfi ölənlərin sayını dəqiqləşdirə bilmir:

"Biz də şəhid vermişik, amma şəhidlərimizin qisası döyüş meydanında qat-qat artıq alınıb. Əsas odur ki, Ermənistana miqyası təsvir olunmayacaq dərəcədə güclü zərbə vurulub. Açıq deyim ki, bir çox məsələlər barədə dəqiq məlumat vermək olmur. Bəlkə buna görədir ki, cəmiyyətimizdə bu qədər şəhid verməklə nə əldə etdiyimiz barədə suallar aktualdır. Amma bu məsələlər barədə kifayət qədər məlumatlı bir insan kimi deyirəm ki, zamanla hər şey bilinəcək və əsgərlərimizin, zabitlərimizin igidliyi, peşəkarlığı sayəsində əldə etdiyimiz uğurun miqyası tam göründükdən sonra onun əsl qiyməti veriləcək", - deyə ekspert bildirib.

***Anar Kəlbiyev***

# Elçin Sadıqov yenidən Baş Prokurorluğa aparıldı

***Həbs edilən vəkil Elçin Sadıqovun bu gün keçirilməli olan məhkəməsi sabaha təxirə salınıb.***

Bu barədə "Unikal"a açıqlamasında onun vəkili Cavad Cavadov məlumat verib.

O bildirib ki, Elçin Sadıqov istintaq hərəkətləri ilə əlaqədar olaraq yenidən Baş Prokurorluğa aparılıb. Qeyd edək ki, E.Sadıqov külli miqdarda rüşvət almaqda köməkçilik etməkdə təqsirləndirilir. Onun barəsində Binəqədi Rayon Məhkəməsinin qərarı ilə 4 aylıq həbs qətimkan tədbiri seçilib.

***Murad İbrahimli***

**ELAN**

**Saatlı rayon Mollavaizli kənd sakini Əliyev Asim Əvəz oğluna verilmiş Yeni Azərbaycan Partiyasının vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur
Sifariş 252.
Tiraj:1700

# Son sutkada koronavirusa yoluxanların sayı açıqlandı

***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 256 yeni yoluxma faktı qeydə alınıb, 395 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 818 890 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 807 096 nəfər müalicə olunaraq sağalıb, hazırda 1 918 aktiv xəstə var. Bu günə qədər 9 876 nəfər vəfat edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 3 388, bu günə qədər isə ümumilikdə 7 206 805 test icra olunub.

# Aİ-dən atəşkəs razılaşması ilə bağlı açıqlama

***Avropa İttifaqı (Aİ) Azərbaycan və Ermənistan arasında əldə olunmuş atəşkəsi alqışlayır.***

"Unikal" xəbər verir ki, bu barədə Aİ-nin Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozep Borrellin mətbuat katibi Peter Stano bildirib. "Aİ Ermənistan və Azərbaycan arasında dünən



saat 20:00-da qüvvəyə minmiş atəşkəs haqqında razılaşmanı alqışlayır. Atəşkəs rejiminə indiyə qədər riayət edildiyini bildirən yerli xəbərlər bizi ruhlandırır", - o vurğulayıb.

P.Stano həmçinin əlavə edib ki, Aİ tərəfləri hərbçilərin meyitlərinin təhvil verilməsi kimi humanitar addımları koordinasiya etməyə çağırır.

# MİDA-nın güzəştli mənzil satışında yenə problem ortaya çıxdı

## Bu dəfə də seçim prosesində sistem çökdü... - Məsələnin kökündən həllinin vaxtı çatmayıbmı?



***Dünən Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən keçirilən "Güzəştli mənzillər"in satışı ilə bağlı sistemdə probemlər yaranıb.***

Belə ki, saat 11:00-da başlamalı olan seçim prosesində sistemə giriş mümkün olmayıb. İstifadəçilər mənzil seçimi edə bilməyiblər.

MİDA-nın Yasamal Yaşayış Kompleksinin 2-ci mərhələsi üzrə 815 mənzilin seçiminin baş tutmamasına münasibət bildirən Elektron Hökumət Mərkəzinin direktor müavini Mehdi Cavadov yaranmış problemə aydınlıq gətirib.

"Güzəşli mənzillərin satışına bir az qalmış elektron sistemə orqanik olmayan çoxlu sayda sorğular daxil olub" deyən Cavadov əlavə edib ki, satışa təxminən 15-20 dəqiqə qalmış müşahidə olunan asan loqin üzərindən yüklülük vətəndaşların daha sonrakı addıma keçə bilməsinə imkan verməyib.

"İlk təəssürat budur ki orqanik olmayan çoxlu sayda sorğular olub. "Orqanik olmayan" dedikdə biz testlərdə, ssenarilərdə müşahidə etdiyimiz standard proses axını üzrə yox, ondan kənar həddindən artıq yüklülüyə səbəb olan prosesi nəzərdə tuturuq. Məsələ burasındadır ki, sistemin potensial istifadəçisi təxminən 20 mindir. Satışda da bunun təxminən 50%-i qədər gözlənilirdi. Yəni bizdəki ssenaridə 20 minə qədər istifadəçinin sistemdə iştirakına uyğun yüklülük testləri aparılıb. Bütün testlər də uğurlu başa çatıb. Bu, əvvəlki satışlarda olan standart prosedurlar idi. İstənilən halda qısa vaxtda araşdırma aparıb tezliklə ictimaiyyətə məlumat veriləcək", - deyə Cavadov əlavə edib.

Yaranmış problem sözügedən Agentliyin ünvanına yeni tənqidlərin meydana çıxmasına səbəb olub. Hesab edilir ki, MİDA öncə baş verənlərdən kifayət qədər ciddi nəticə çıxarmayıb və satış sistemini təkmilləşdirmək üçün lazımi addımlar atmayıb.

Xatırladaq ki, bundan əvvəl MİDA-nın Yasamal Yaşayış Kompleksində növbəti güzəştli mənzil satışı da qalmaqalla müşahidə edilmişdi. Səbəb nə az, nə çox, 442 mənzilin bir neçə saniyədə satılması idi. Bu isə mənzil seçimində iştirak edən 9 minə yaxın müraciətçinin mütləq çoxluğunun etirazına səbəb oldu və seçim prosesinin şəffaf keçirilmədiyinə dair fikirlər yayıldı. Nəinki sadə vətəndaşlar, elə ekspertlərdən tutmuş bəzi millət vəkillərinəcən cəmiyyətin böyük bir hissəsi satış prosesinin obyektivliyi məsələsində ciddi suallar, şübhələr olduğuna dair qənaətlərini ortaya qoydular.

Ardınca Dövlət Təhlükəsizliyi Xidmətindən verilən rəsmi məlumatda bildirildi ki, 442 mənzilin güzəştlə satışı prosesi yerinə yetirilərkən kənardan müxtəlif şəxslər tərəfindən xüsusi kompüter proqram təminatlarından istifadə edilməklə mənzillərin seçiminə müdaxilə halları müşahidə olunub. Bu məsələnin araşdırılması üçün aidiyyəti üzrə Dövlət Təhlükəsizliyi Xidmətinə müraciət edilib. İlkin araşdırmalar aparılaraq faktla bağlı Cinayət Məcəlləsinin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən kompüter sistemi və məlumatlarına təkrar qanunsuz müdaxilə maddələri ilə cinayət işi başlanılıb. Onlar Mənzil İnşaatı Dövlət Agentliyinin "Güzəştli mənzil" informasiya sisteminə daxil olmaq, oradakı məlumatları dəyişmək hüququ olmadan maddi maraq zəminində şəxslərin güzəştli şərtlərlə mənzil əldə etmələrini təmin etmək məqsədilə xüsusi kompüter proqram təminatları hazırlayıb və ya uyğunlaşdırıblar. "Martın 30-da "Güzəştli mənzil" informasiya sistemində kompüter məlumatlarını qəsdən təkrar dəyişdirib qanunsuz müdaxilə ediblər. Bu hərəkətlərlə onlar hüququ olan vətəndaşların ümumi və bərabər əsaslarla güzəştli mənzil əldə etmək imkanını məhdudlaşdırmaqla və dövlət orqanlarının normal fəaliyyətinə mane olmaqla əhəmiyyətli zərər vurublar. Həmin şəxslər təqsirləndirilən şəxs kimi cinayət məsuliyyətinə cəlb olunublar. Cinayət işi üzrə araşdırmalar davam edir" deyə məlumatda qeyd olunurdu.

Ümumiyyətlə isə ilk gündən bəri MİDA-nın hər güzəştli mənzil satışı prosesi ətrafında mübahisələr müşahidə olunur, müxtəlif iddialar, tənqidlər səsləndirilir. Sonuncu dəfə isə sistemdə yaranan problem bir daha göstərir ki, bu qurum indiyədək yaşananları çox ciddi analiz eləməli, cəmiyyətdə narazılıq yaradan, suallar doğuran məqamları, texniki və digər çatışmazlıqları aradan qaldırmaq üçün artıq konkret addımlar atmalıdır. Bunun nəinki vaxtı çatıb, hətta keçir...

Əks halda kifayət qədər əhəmiyyətli, vacib, xoşniyyətli, təqdirəlayiq bir layihə gərəksiz şəkildə ictimai müzakirə obyekti olmaqda davam edəcək.

***Murad İbrahimli***

# İlham Əliyev Şavkat Mirziyoyevlə görüşdü



***Sentyabrın 15-də Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olub.***

"Unikal" xəbər verir ki, Prezident Şavkat Mirziyoyev dövlətimizin başçısını Özbəkistanda salamlamaqdan məmnunluğunu bildirdi, Azərbaycan Prezidenti İlham Əliyevin iyunda Özbəkistana dövlət səfərini xatırladı. Özbəkistan Prezidenti dövlət səfəri zamanı müəyyənləşdirilən istiqamətlər üzrə işlərin uğurla davam etdirildiyini, hökumətlərarası komissiyanın fəaliyyətinin təşkil olunduğunu, verilmiş tapşırıqların yerinə yetirildiyini vurğuladı. Prezident Şavkat Mirziyoyev yüksək səviyyəli qarşılıqlı səfərlərin də davam etdirildiyini, Azərbaycan Milli Məclisi sədrinin bu yaxınlarda Özbəkistana səfərinin, parlamentlərimiz arasında əməkdaşlığın məmnunluq doğurduğunu diqqətə çatdırdı.

Qarşıda duran əsas məsələnin əlaqələrimizin bütün sahələrdə daha da inkişaf etdirilməsi olduğunu vurğulayan Özbəkistan Prezidenti Azərbaycanın və Özbəkistanın mədəniyyət xadimlərinin qarşılıqlı təltif olunmasını müsbət hal kimi dəyərləndirdi. Prezident Şavkat Mirziyoyev dövlətimizin başçısını Özbəkistanda ən əziz dostu və qardaşı kimi salamladığını bir daha qeyd etdi.

Prezident İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının Sammitində ilk dəfə iştirak üçün dəvətə görə Prezident Şavkat Mirziyoyevə təşəkkürünü bildirdi. Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatında dialoq tərəfdaşı statusuna sahib olduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizin ilk dəfə məhz Özbəkistanın sədrliyi dövründə fəxri qonaq qismində Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısına dəvət olunduğunu diqqətə çatdırdı və uğurlu sədrlik münasibətilə Prezident Şavkat Mirziyoyevi təbrik etdi.

Dövlətimizin başçısı Özbəkistanın Şanxay Əməkdaşlıq Təşkilatına sədrliyi dövründə yaxşı nəticələrin əldə olunduğunu bildirdi. Səmərqənddə aparılan yenidənqurma işlərini, şəhərin abadlaşdırılmasını, gözəlləşdirilməsini xoş təəssüratla qarşıladığını vurğulayan Azərbaycan Prezidenti qardaş Özbəkistanın Prezident Şavkat Mirziyoyevin rəhbərliyi ilə inkişafının xalqımızda böyük sevinc hissi doğurduğunu qeyd etdi. Dövlətimizin başçısı bildirdi ki, biz qardaş, dost ölkə olaraq yenidən birləşdik və əlaqələrimizdə yeni məzmun yaradırıq.

Özbəkistana dövlət səfərini xoş təəssüratlarla xatırladığını vurğulayan Prezident İlham Əliyev Prezident Şavkat Mirziyoyevi Azərbaycana səfərə dəvət etdi.

Prezident Şavkat Mirziyoyev dəvəti məmnunluqla qəbul etdi.

Azərbaycan Prezidenti İlham Əliyev kənd təsərrüfatı, pambıqçılıq, trikotaj, nəqliyyat, sənaye, ticarət və digər sahələrdə əlaqələrimizin inkişafında konkret nəticələrin olduğunu bildirdi. Bütövlükdə iqtisadi-ticari əlaqələrimizin sürətlə inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı da mədəniyyət xadimlərimizin qarşılıqlı təltif edilməsini müsbət hal kimi dəyərləndirdi.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Nazirlik şəhiddən 6 min rüşvət alınmasını araşdırır

***Azərbaycan Müdafiə Nazirliyi sentyabrın 13-də şəhid olmuş gizir Səbuhi Əhmədovun "Komando" xüsusi briqadasına götürülməsi üçün 6000 manat rüşvət verməsi barədə iddianı araşdırır.***

"Unikal" xəbər verir ki, bu barədə xəbəri "Haqqin.az" saytının rəhbəri Eynulla Fəzullayev ictimailəşdirib.

"Bir saat öncə Müdafiə Nazirliyi ilə danışdım. Şəhid Səbuhi Əhmədovun qardaşı bildirib ki, "Komando" xüsusi briqadasına götürülməsi üçün onlardan 6 min manat rüşvət alıblar. Artıq Məmmədovun qardaşı Müdafiə Nazirliyinə dəvət edilib, araşdırma aparılır. Məsələnin xüsusi diqqətdə saxlayırıq! Məncə, günün sonuna qədər ciddi nəticə olacaq! İşin sonuna qədər gedəcəm!", - deyə baş redaktor vurğulayıb. Xatırladaq ki, şəhid gizir Səbuhi Əhmədovun qardaşı Sənan Əhmədov dünən jurnalistlərə və blogerlərə verdiyi açıqlamada onlardan rüşvət alındığını bildirib. O deyib ki, qardaşı Səbuhi Əhmədovun"Komando" xüsusi briqadasına götürülməsi 6000 manat rüşvət istəmişdilər. Səbuhi də bankdan kredit götürüb tələb olunan məbləği ödəyib ki, "Komando" olsun. Gizir 3 gündən sonra şəhid olub.

Qeyd edək ki, Səbuhi və qardaşı Sənan Əhmədov azyaşlı olarkən ata-anaları vəfat edib. Onlar "SOS" uşaq evində böyüyblər.

# "Sərhəddəki son təxribat Ermənistanın revanşizm siyasətinin təzahürüdür"

## Cavid Osmanov: "Bu, bir daha onu göstərir ki, Ermənistanda revanşizm siyasəti, türkfobiya meylləri inkişaf edir və Azərbaycanla münasibətlərin normallaşmasına süni əngəl yaradılır"



***Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü Cavid Osmanov "Unikal"a müsahibə verib. O, Ermənistan silahlı qüvvələrinin sərhəddə törətdiyi təxribatlardan, bu addımı atmaqla düşmən tərəfinin hansı niyyətdə olmasından, Rusiya Dövlət Dumasının deputatı Konstantin Zatulinin son təxribatçı addımından və s. məsələlərdən danışıb.***

***-Sentyabrın 12-si gecə saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin bir neçə istiqamətində genişmiqyaslı təxribat törədilib. Bu günlərdə də düşmən təxribatları davam etdi və Azərbaycan Ordusu təxribatlara adekvat cavab verdi. Düşmən hansı məqsədlə sərhəddə təxribat törədib?***

-Məlum olduğu kimi, sentyabrın 12-si gecə saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törədib. Bu təxribat bir daha onu göstərdi ki, Ermənistan Azərbaycana qarşı revanşizm siyasəti yürüdür və ölkəmizə qarşı ərazi iddialarından çıxış edir. Ermənistan tərəfi uzun müddət idi ki, təxribatlara əl atırdı. Belə ki, Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi qələbədən sonra düşmən tərəfi dəfələrlə təxribat törətməyə cəhd edib. Bu təxribat cəhdlərinin hər biri Rəşadətli Ordumuz tərəfindən alınıb və onlara layiqli cavab verilib. Ermənistanın təxribat törətməkdə məqsədi 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanat üzrə öhdəliklərini yerinə yetirməkdən yayınmaq cəhdinin təzahürüdür. Onlar üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən boyun qaçırırlar. Bu, bir daha onu göstərir ki, Ermənistanda revanşizm siyasəti, türkfobiya meylləri inkişaf edir və Azərbaycanla münasibətlərin normallaşmasına süni əngəl yaradılır. Ermənistan Vətən müharibəsindən sonra bir sıra ölkələrdən silah tədarük edərək Ermənistan-Azərbaycan sərhədi yaxınlığında hərbi birləşmələrin cəmləşməsini həyata keçirirdi. Son törədilən təxribat da məhz onların revanşizm siyasətinin təzahürü idi.

***-Son təxribatlar həm də Tovuz döyüşlərini xatırladırdı...***

-Bəli, baş verənlər 2020-ci ildəki Tovuz döyüşlərini xatırladır. Eyni ssenari təkrarlanır. Biz o vaxt olduğu kimi, yenə də düşmənin sabotaj cəhdinin qarşısını qətiyyətlə aldıq. Əsas fərq ondan ibarət idi ki, o zaman torpaqlarımız işğal altında idi. İndi isə biz tarixi ərazilərimizi azad etmişik. Bir sözlə, Ermənistanın bundan sonrakı təxribatlarının qarşısı da alınacaq. Ümumiyyətlə, Ermənistan Azərbaycanla münasibətlərin normallaşmasını istəmir. Düşmənin ərazi iddiaları davam edir. Bununla əlaqədar olaraq beynəlxalq ictimaiyyət qarşı tərəfə təzyiqləri artırmalıdır.

***-Ermənilərin törətdiyi son təxribata cavab olaraq keçirilən əməliyyatdan sonra hansı ərazilər Ordumuzun nəzarətinə keçdi?***

-Azərbaycan Ordusu bir daha təxribat törədənlərə öz gücünü göstərdi. Ordumuz Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə 7 saat ərzində unikal həmlə edərək mühüm yüksəklikləri nəzarət altına götürdü. Mühüm nəqliyyat sistemi nəzarət altına keçdi, bununla da onlara ciddi zərbə endirildi. Onlar başa düşdülər ki, "Dəmir yumruq" yerindədir, daha güclü və qüdrətlidir. Bundan sonra bir daha təxribat törətmək cəhdləri olarsa, "Dəmir yumruq" növbəti dəfə onları əzməyə hazırdır. Növbəti belə təxribat cəhdlərinin qarşısı daha sərt formada alınacaq. Ermənsitan üçün yeganə yol Azərbaycanla münasibətləri normallaşdırmaqdır. Əgər belə addım atmasalar, bu onlar üçün daha acı nəticələrə səbəb olacaq.

***-Sonuncu Brüssel görüşündə sülh müqaviləsinin hazırlanması ilə bağlı razılıq əldə olundu. Bunun ardınca Ermənistan tərəfi sərhəddə törətdikləri ilə sülhdən yayınmağa çalışır...***

-Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi zəfərdən sonra irəli sürdüyü bütün sülh təşəbbüsləri Ermənistan tərəfindən sabotaj edilir. Onlar müxtəlif formalarda bu sülh müqaviləsini imzalamaqdan boyun qaçırırlar. Belə ki, qarşı tərəf kommunikasiyaların açılması, sülh müqaviləsinin imzalanması və münasibətlərin normallaşması istiqamətində irəli sürülən bütün təşəbbüsləri fərqli istiqamətə yönəldir. Bu, qarşı tərəfin yeni reallıqları qəbul etmədiyini göstərir.Yayılan dezinformasiyalar, üçtərəfli razılaşmaların şərtlərindən boyun qaçırılması bu məqamı təsdiqləyir. Ümumiyyətlə, İrəvan indiyədək əldə olunan bütün razılıqları sabotaj edir. Ermənistan yeganə çıxış yolu olan sülh müqaviləsini imzalamaqdan boyun qaçırır.

Ermənistan təxribatı tək döyüş meydanında deyil, eyni zamanda dezinformasiya yaymaqla da törədir. Heç bir fakta söykənməyən yalan məlumatlar yayırdılar. Bir müddət sonra bütün dünyaya məlum oldu ki, bu, Ermənistan tərəfinin növbəti təxribatıdır. Çalışırdılar ki, müxtəlif platformalarda Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzuna zərbə vursunlar. Buna nail ola bilmədilər. Azərbaycan haqlı tərəfdir, öz ərazilərini işğaldan azad edib. Ermənistan isə işğalçılıq siyasətini davam etdirmək niyyətindədir.

***-Bu günlərdə Ermənistanın paytaxtı İrəvanda aksiyalar keçirilir. Bu etirazlar nə ilə nəticələnə bilər?***

-Ermənistanın başını əzən "Dəmir yumruq" bu ölkədə mövcud olan böhranı daha da dərinləşdirdi. Ötən gün gecə saatlarından genişmiqyaslı mitinqlər keçirilir. Bu onu göstərir ki, Ermənistanda xaotik bir vəziyyət yaranıb. Bu ölkədə anarxiya hökm sürür. Artıq onlar böyük bir vətəndaş qarşıdurması astanasındadır. Bunun səbəbkarı isə birbaşa Ermənistanın hərbi-siyasi rəhbərliyidir. Onların yürütdüyü revanşizm siyasətinin nəticəsidir ki, bu ölkə acınacaqlı vəziyyətə düşüb.

***-Sərhəddə baş verənlərin fonunda Rusiya Dövlət Dumasının deputatı Konstantin Zatulinin sentyabrın 1-də Dağlıq Qarabağdakı bir neçə separatçı-terrorçunun cəmləşdiyi qanundan kənar quruma "təbrik məktubu" göndərməsi diqqətdən kənarda qaldı. Bununla bağlı nə deyərdiniz?***

-Rusiya Dövlət Dumasının deputatı, hakim Vahid Rusiya Partiyasının üzvü Konstantin Zatulin hər zaman Azərbaycana qarşı qərəzli mövqedən çıxış etməsi ilə yadda qalır. O, Ermənistana, hətta işğal dövründə Ermənistanın özünün tanımadığı qondarma rejimə belə açıq dəstəyini nümayiş etdirir. Zatulin o qədər irəli gedir ki, görünür, erməni lobbisi tərəfindən daha çox bəsləndikcə, hətta öz ölkəsinin prezidentinin əleyhinə bəyanatlar verməkdən belə çəkinmir. Rusiya Prezidenti Vladimir Putinin Qarabağı beynəlxalq hüquq və normalara uyğun olaraq Azərbaycanın tarixi torpaqları kimi tanıdığı bir məqamda Zatulin bunu inkar edir. Baxmayaraq ki, o, eyni zamanda hakim partiyanın üzvüdür, amma bu ərazilərdə məhz ermənilərin yaşamalı olduğunu dəfələrlə vurğulayır. Zatulin erməni lobbisindən bəslənərək açıq şəkildə bütün beynəlxalq hüquq və normaları pozur. O, qanunvericilik orqanının üzvü olmasına baxmayaraq, bütün qanunların üzərindən xətt çəkib qondarma rejimin rəhbərliyinə məktub ünvanlayır, onları sentyabrın 1-də "respublika günü" münasibətilə təbrik etməyi də özünə borc bilir. Zatulinin simasında qərəzli mövqedən çıxış edən belə adamlar elə Rusiyanın özü tərəfdən cəzalandırılmadıqca daha da hədlərini aşmağa davam edirlər. O, məktubunda açıq şəkildə qondarma rejimi təbrik edərək həmin ərazilərdə olan ermənilərin yanında olduğunu vurğulayır. Zatulinin, yəqin, yadından çıxıb ki, onun ölkəsinin rəhbəri bu ərazilərin beynəlxalq hüquq və normalar çərçivəsində Azərbaycanın tarixi torpaqları olduğunu qeyd edir.

Zatulin bu addımı ilə ilk növbədə öz ölkəsinin rəhbərinin iradəsinə, digər tərəfdən isə bölgədə sülh və əmin-amanlığa qarşı çıxır. O, qarşıdurmanın daha da alovlanmasına zəmin yaratmaq niyyəti güdür. Heç bir dünya ölkəsi, beynəlxalq təşkilatlar, o cümlədən Ermənistanın özü tərəfindən tanınmayan qondarma rejimə məktub ünvanlayan Zatulinə rəsmi Kreml tərəfindən ciddi cəza tətbiq edilməlidir. Eyni zamanda hakim Vahid Rusiya Partiyası tərəfindən Zatulin tənbeh olunmalıdır. Çünki qanunvericilik orqanının deputatının belə addım atması cəzasız qala bilməz. Zatulin bununla terrorçuluğu, ekstremizmi dəstəklədiyini açıq şəkildə nümayiş etdirmiş oldu. Bu da beynəlxalq hüququn kobudcasına pozulması deməkdir.

***Anar Kəlbiyev***

# Elsevər Ağayeva növbəti "qara xəbər"...

## Ölkənin dərman bazarı sabiq nazir müavininin təsir dairəsindən qurtulur

***Yola salmaq üzrə olduğumuz həftə açıqlanan rəsmi məlumata görə, 2022-ci ilin 1-31 avqust müddətində ümumilikdə 52 aptekdə monitorinq keçirilib.***

Analitik Ekspertiza Mərkəzindən verilən xəbərdə bildirilib ki, yoxlama nəticəsində 6 adda, 19 qutu dərman vasitəsi müsadirə edilib.

Nəticədə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 221.1 və 452.3 maddələrinə əsasən 8 protokol tərtib olunub.

Qeyd edək ki, bu və bənzər yoxlamaların aparılması, nöqsanların müəyyənləşdirilməsi və qanunvericilik çərçivəsində cəza tədbirlərinin görülməsi təqdirəlayiqdir.



Çünki uzun müddətdir ölkənin dərman bazarında xaotik vəziyyətin hökm sürdüyünə dair ciddi narahatlıqlar var. Hətta bir sıra ekspertlər müxtəlif vaxtlarda yerli KİV-ə açıqlamalarında aydın şəkildə bəyan ediblər ki, Azərbaycanda hər iki dərmandan biri keyfiyyətsizdir!

Maraqlı orasındadır ki, belə iddialara rəsmi qurumlar konkret münasibət bildirməyiblər. Məsələn, biz Səhiyyə Nazirliyindən ölkədə satılan dərmanların keyfiyyətinə dair tanınmış mütəxəssislərin səslləndirdiyi kifayət qədər sensasion sayıla biləcək iddia və ittihamlarına hər hansı dəqiq, operativ, lakin operativ olduğu qədər də obyektiv reaksiyanı nə görmüşük, nə də eşitmişik.

Uzun müddətdən bəridir tibb ekspertləri həyəcan siqnalı çalır və deyirlər: Azərbaycanda keyfiyyəti aşağı olan dərmanlar həddən artıq çoxdur. Keyfiyyət parametrinin aşağı olması dərman preparatının tərkibinə daxil olan dad, rəng, struktur verən dərman əlavələrinin özlərinin də nələrdən ibarət olmasından irəli gəlir. Yəni, elə dərman əlavələri var ki, onlar orqanizmə təsir baxımından effektsizdir. Məsələn, dərman maddəsinin üzərində olan kapsulun özünün də nədən, hansı jelatindən hazırlanmasının böyük əhəmiyyəti var. Bu mənada demək olar ki, keyfiyyəti aşağı olan dərman preparatları ölkəmizin dərman bazarında yetərincədir. Dərman bazarında bir xaos hökm sürür. Bu xaos da ondan ibarətdir ki, ölkədə lazım olan dərman preparatının özünü tapa bilmirsən, amma eyni cür antibiotikdən yüzü var!

Gəlin razılaşaq ki, bu fikirlər kifayət qədər sensasion xarakterlidir, belə rəylərin həqiqətlə nə qədər uyğun gəlib-gəlmədiyinə dair aidiyyatı orqanlar konkret mövqe nümayiş etdirməlidirlər. Lakin təəssüflər olsun ki, uzun illərdir sözügedən mövqenin varlığından danışmaq mümkün deyil. İstər-istəməz sual yaranır: görəsən, niyə? Dərman bazarındakı xaos, başıpozuqluq kimin işinə yarayır ki, yuxarıda diqqətinizə çatdırdığımız yetərincə ciddi iddialar qarşısında susqunluq nümayiş olunur? Və ya, uzun müddətdir əksər ekspertlər bildirirlər ki, Azərbaycanda dövlət farmakopeyası yaradılmalı, dərman maddələrinin dövlət reyestri olmalı, ayrı-ayrı tibbi təyinatlı kommersiya qurumları yalnız konkret dərman idxalı ilə məşğul olmalıdırlar. Sözügedən mövzuda danışan tanınmış tibbi ekspert, professor Adil Qeybulla bir müddət öncə ölkə mediasına müsahibəsində bildirmişdi ki, dərman idxalı tamamilə kökündən qurulmalıdır. Sitat: "Ondan əvvəl isə bu məsələ ətrafında yaranan koorporativ maraqlar aradan qaldırılmalıdır. Çünki məhz koorporativ maraqlar keyfiyyətsiz dərman bazarının "çiçəklənməsinə" rəvac verir. Ölkədə "Alman" apteki, "Britan" apteki var. Almaniyanın daxili bazarında istehsal olunan dərmanla buradakı "Alman" aptekində olan dərman arasında fərq var. Bunu hiss edirik. Bu mənada düşünürəm ki, keyfiyyətsiz dərmanlar Azərbaycan dərman bazarının ən azından yarısını təşkil edir".

Lakin cənab Qeybullanın və onunla eyni fikirləri bölüşən mütəxəssislərin bu məzmunlu iddiaları da illərdən bəridir ki, eşidilməzdən gəlir. Səbəb? Açığı, bu mövzuda danışarkən səbəb yox, səbəblərdən danışmaq lazımdır. Uzun illər səhiyyə nazirinin müavini postunu tutmuş və məhz həmin vəzifənin verdiyi imkanlardan istifadə edərək dərman bazarında həlledici təsir imkanlarına yiyələnmiş Elsevər Ağayev yuxarıda sadalanan çoxsaylı problemlər barədə bircə yol belə danışmağı özünə rəva görməyib. Üstəlik, hər fürsətdə Azərbaycanda satılan dərmanların keyfiyyəti və qiyməti çoxsaylı şikayətləri yalana çıxarmaq istəyib. Niyəsini uzun-uzadı danışmaq gərəksizdir. Sabiq nazir müavini apteklər üzərində də söz sahibi idi, onun iradəsindən kənarda əczaçılıq fəaliyyəti ilə məşğul olmaqdan ötrü hətta möcüzə belə kifayət eləməzdi.

Ağayev aylardan bəridir vəzifədən kənarlaşdırılıb və artıq ölkənin dərman bazarında illərdən bəridir hökm sürən xaosun, özbaşınalığın, başıpozuqluğun aradan qaldırılması istiqamətində ciddi işlər görüldüyü, yoxlamalar aparıldığı, nöqsanlar aşkarlandığı hiss olunur. Elsevər müəllim belə tədbirlərdən, şübhəsiz ki, xoşnud deyil, axı onun hələ də dərman bazarını bu və ya digər dərəcədə öz təsir dairəsində saxlamaq istədiyi yönündə iddialar səslənir.

Lakin apteklərdə yoxlamalar sabiq nazir müavininin həm belə istəklərinin üzərindən xətt çəkir, həm də vaxtilə Səhiyyə Nazirliyində kimlərləsə, nələrin müqabilində anlaşaraq Azərbaycanın dərman bazarında "suyu bulandırmağa" çalışanların əl-qolunu bağlayır.

Ümid edək ki, belə təftişlər davamlı olacaq və aparılan yoxlamalar, onların nəticələri azərbaycanlıların istər qiymət nöqteyi-nəzərindən maddi imkanlara, istərsə də keyfiyyət sarıdan müasir standartlara uyğun dərmanlar ala bilməsi baxımından müstəsna nəticələr doğuracaq...

***Toğrul Əliyev***



***Zaur Əhməd***

# Savaş və biz...

***Xalq olaraq, dövlət olaraq ağır sınaqdan keçirik. Qarabağ cəbhəsindəki savaşı mütləq qələbə ilə bitirə bilmədiyimiz üçün itkilərimiz olur. Ağır da olsa, təskinlik tapmağa çalışırıq. Bir gecədə 50 can verdik, 50 evin işığı söndü, amma düşmənin də tifağını dağıtmışıq. Rəsmi məlumatlara görə, Ordumuzun 7 saatlıq əməliyyatı nəticəsində Ermənistanın xeyli sayda hərbi texnikası, milyard dollarlıq qiyməti olan iki S-300 raketi, 200 nəfərə yaxın canlı qüvvəsi, çoxlu sayda hərbi obyekti və onlarla postu məhv edilib. Eyni zamanda yüzlərlə hərbçisi yaralanıb.***

Amma içimizə bir od düşüb ki, nə desək, boş... Əlimiz yanır ağzımıza təpirik. "Düşmənin dədəsini yandırdıq" - deyirik ki, bəlkə təskinlik tapaq. Bir anlıq elə bil adamın ürəyi soyuyur, sakitləşir, amma az keçir, yenə də için göynəyir. Dərin bir çarəsizlik...

Siyahıya baxıram, hamısı məndən kiçik. Adam utanır 18-19 yaşlı bu dünyada hələ bir gün görməmiş cavanların şəklini görəndə. İçimizdəki qəzəbi, ağrını, tufanı ifadə etməyə söz tapmır adam. Nə deyəsən? Kimin yaxasından yapışasan? Kimdən hesab sorasan?

Bir gecədə 50 şəhid verməyi heç hara yazmaq olmur. Yenə də dişimizi sıxıb dözürük. Bir tərəfdə Vətən. Bir tərəfdə qara torpağı Vətən edən qəhrəman oğullar. Və o övladları yetişdirən analar, atalar. O valideynlərin tərəfi daha dəhşətlidir. İndi onlar tərəfə baxmaq olmur. Nə deyəsən? Bütün sözlər acizdir. Amma yenə də o atalar, o analar qürurla "Vətən sağ olsun" deyə bilirlər, biz də onlarla təskinlik tapırıq. Deyirik ki, nə yaxşı Allah bu adamlara səbr, dözüm verir. Bəzən də vermir, şəhid balası ilə yanaşı uyumaq yolunu tutur atalar...

Biz itkilərimizi, acılarımızı qəbul edərək ötkəm, qürurlu, şərəfli, dik dayanmağı bacaran xalqıq. Çox uzağa getməyək. Son 30 ildə ən çox itkilərimiz, şəhidlərimiz olanda möhkəmlənmişik, ayaqda olmuşuq, dünyada "heç bir qüvvə bizi yenə bilməz" mesajını vermişik. Lakin nə yazıq ki, bölücülük etməyə çalışanlar, ruhdan düşməyimizi istəyənlər də olur.

Ermənistan silahlı qüvvələrinin bölmələri bütün hüquq və normaların tələblərini kobud şəkildə pozaraq 2022-ci il sentyabrın 12-də gecə saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törədib. Azərbaycan Ordusu da bu təxribata adekvat cavab verib. Şəhidlərimiz, yaralılarımız var. Amma qürurluyuq, möhkəmik, mətinik və haqlıyıq. Lakin sosial şəbəkələrdə anti-milli, anti-dövlət fikirlər də səslənir. Ordumuzun bu əməliyyatını Azərbaycanın Ermənistana təcavüz etməsi kimi təqdim edənlər dərhal həbs olunmalıdır. Çünki bu fikir, düşüncə azadlığı deyil, VƏTƏNƏ XƏYANƏTDİR. Bu qədər şəhidi olan millətin mübarizəsini başqa ölkəyə təcavüz kimi qiymətləndirməyin başqa adı yoxdur.

Bəzən hüquq mühafizə orqanları hərəkətə keçmək üçün konkret müraciət gözləyirlər. Odur ki, müraciət edirəm, fikir və düşüncə azadlığı altında Vətənə Xəyanət edənləri ən ağır şəkildə cəzalandırın. Necə deyirlər: Ya Dövlət başa, ya quzqun leşə...

## Emin Əmrullayev: "Ağalı məktəbində şagird sayın artması gözlənilir"



*"Uzun müddətdən sonra ilk dəfə Zəngilan rayonunun Ağalı kəndindəki tam orta məktəbdə zəng çalınıb. Bu gün həqiqətən də fərqli Bilik günüdür. Hesab edirəm ki, bu, böyük prosesin başlanğıcıdır. Bu gün həm qürurverici, həm də ümidvericidir".*

Bunu həmin məktəbdə tədris ilinin başlanması tədbirində iştirak edən elm və təhsil naziri Emin Əmrullayev deyib.

Nazir bildirib ki, Ağalı məktəbində 65 şagird təhsilə cəlb olunub:

"Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də Ağalı sakini olan 14 müəllim tədris deyəcək. Sevindirici hal idi ki, burada işləmək üçün təxminən 800-ə yaxın müəllim müraciət etmişdi. Sakinlərin köçü davam etdiyindən yaxın həftələrdə şagird sayının artması gözlənilir. Kompleksdə həmçinin məktəbəqədər təhsil müəssisəsi də fəaliyyət göstərəcək. Əminəm ki, Ağalı kənd tam orta məktəb təhsil sisteminin ən üzdə olan məktəblərindən biri olacaq".

O qeyd edib ki, hazırda Prezident İlham Əliyevin müxtəlif sərəncamları ilə işğaldan azad olunan ərazilərdə təhsil infrastrukturunun qurulması üçün işlərə başlanılıb.

## Çoxsaylı itkilər verən düşmən geri çəkilməyə məcbur edilib - DSX

***Sentyabr ayının 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissələrində Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribatlarının qarşısının alınması məqsədilə Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən düşmənə ağır sarsıdıcı zərbələr endirilib və atəş nöqtələri zərərsizləşdirilib.***

Dövlət Sərhəd Xidmətindən "Unikal"a verilən məlumata görə, şəxsi heyət və hərbi texnika baxımından çoxsaylı itkilər verən düşmən geri çəkilməyə məcbur edilib.

## Bakıda 17 yaşlı qız itkin düşdü



***Bakıda 17 yaşlı qız itkin düşüb.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, paytın Nəsimi rayonunda yaşayan Əliyeva Arzu Tərlan qızı polisə müraciət edədər qızı, 2005-ci il təvəllüdlü Hacıyeva Dinara Vüsal qızının avqustun 29-da evdən çıxdığını və bir daha geri qayıtmadığını bildirib. O, həmin gündən bəri qızı barədə məlumat ala bilmədiyini qeyd edib.

Nəsimi Rayon Polis İdarəsinin 21-ci Polis Bölməsinin əməkdaşları tərəfindən həmin şəxsin axtarışlarına başlanılıb.

"Dinara Hacıyeva barəsində məlumatı olanlardan DİN-in "102" Xidməti Zəng Mərkəzinə, həmçinin Nəsimi Rayon Polis İdarəsinin 21-ci Polis Bölməsinə (012) 441-23-80 şəhər və (055) 805-93-93 mobil nömrələrinə zəng edərək məlumat verməələri xahiş olunur", - məlumatda qeyd edilib.

# Almaniyadakı səfirliyimizdə korrupsiya izləri...

## Dövlət Maliyyə Nəzarəti Xidmətinin aşkarladığı pozuntular kimləri çətin vəziyyətdə qoyacaq?



***Yola salmaq üzrə olduğumuz həftə Maliyyə Nazirliyinin tabeliyindəki Dövlət Maliyyə Nəzarəti Xidmətinin (DMNX) Almaniyadakı səfirliyimizdə yol verilən pozuntularla bağlı Dövlət Təhlükəsizlik Xidmətinə (DTX) müraciət etdiyi açıqlandı.***

"Azərbaycanın Almaniya Federativ Respublikasındakı Səfirliyinin 30 dekabr 2014-cü il tarixdən 01 oktyabr 2021-ci il tarixə kimi olan dövrdə maliyyə-təsərrüfat fəaliyyətinin təftişi zamanı bank çıxarışlarındakı məlumatların dəyişdirilərək saxtalaşdırılması, bank hesablarında olan vəsaitlərin, o cümlədən konsulluq əməliyyatları üzrə dövlət rüsumlarının təyinatından başqa hesablara köçürülməsi yolu ilə mənimsənilməsi halları müəyyənləşib". - deyə DMNX-nin bununla bağlı məlumatında bildirilib.

Qurumun da xüsusi vurğuladığı kimi, məhz aşkarlanan maliyyə pozuntularının ciddiliyi nəzərə alınaraq təqsirkar vəzifəli şəxslər barəsində müvafiq tədbirlər görülməsi məqsədilə yoxlama materialı DTX-yə təqdim edilib.

Onu da deyək ki, DMNX tərəfindən aparılan yoxlamaların əhatə etdiyi 2014 - 2021-ci illərin bir qismində səfir postunu hazırda energetika naziri olan Pərviz Şahbazov tutub. Belə ki, o, 2005-ci ilin avqust ayından 2016-cı ilin sentyabrına qədər Azərbaycanın Almaniyadakı fövqəladə və səlahiyyətli səfiri olub. Şahbazov həmin vəzifədən geri çağrıldıqdan bir il sonra, 2017-ci ilin oktyabrında energetika naziri təyin edilib.

2016-cı ildən etibarən isə Almaniyadakı səfir postu Ramin Həsənova həvalə edilib. O, 2022-ci ilin avqustunda geri çağrılıb, sonra isə Cənubi Koreyadakı fövqəladə və səlahiyyətli səfirimiz təyin edilib.

DMNX-nin məlumatında aşkarlanan pozuntuların konkret olaraq hansı il, yaxud hansı illərdə baş verdiyi göstərilməyib, təftişin ümumilikdə 7 ili əhatə etdiyi qeyd olunub. Buradan belə güman etmək olar ki, qanunsuzluqlar bəhs edilən dövr üçün xarakterikdir, yəni onlar həm Şahbazovun, həm də Həsənovun səfir olduğu müddətdə baş verib. Lakin daha dəqiq detallar yəqin ki, sonrakı mərhələdə üzə çıxacaq.

Xatırladaq ki, bu ilin əvvəllərində Dövlət Maliyyə Nəzarəti Xidməti Xarici İşlər Nazirliyində də maliyyə pozuntuları aşkar eləmişdi. Həmin vaxt yayılan rəsmi məlumatda bildirilirdi ki, sözügedən nazirlikdə aparılan nəzarət tədbirləri nəticəsində dövlət büdcəsində dəftərxana və təsərrüfat mallarının alınması üçün nəzərdə tutulmuş vəsaitin satıcı təşkilatların hesablarına köçürülməsinə baxmayaraq, həmin malların, habelə mətbəə blanklarının bir hissəsinin faktiki olaraq alınmadığı aşkarlanıb. Həmçinin, istifadə olunan kompüter avadanlığı və texniki vasitələr üçün ehtiyat hissələrinin, habelə hədiyyə və suvenirlərin alınması məqsədilə köçürülmüş vəsaitin müqabilində həmin material qiymətlilərinin xeyli hissəsinin faktiki olaraq alınmadığı, bankdan çıxarılaraq Nazirliyin kassasına mədaxil edilən büdcə vəsaitinin bir hissəsinin xərclənməsinə dair sənəd olmadığı halda isə məxaric edilməsi yolu ilə əsassız xərcləndiyi müəyyənləşdirilmişdi.

Onu da deyək ki, sabiq xarici işlər naziri Elmar Məmmədyarovun zamanında Azərbaycanın xarici ölkələrdəki diplomatik korpuslarında korrupsiya halları kifayət qədər geniş yayılmışdı. Məsələn, təkcə 2018-ci ildə bir neçə səfirlikdə aparılan araşdırmalarda ciddi pozuntular ortaya çıxmışdı. Bu sırada Gürcüstan Respublikası, Mərakeş Krallığı və Qazaxıstan Respublikasındakı səfirliklərində aşkarlanan maliyyə nöqsanları daxil idi. Hesablama Palatasının 2017-ci ildə fəaliyyəti üzrə hesabatından aydın olurdu ki, Azərbaycanın Gürcüstandakı səfirliyində əməkhaqqının ödənilməsi üzrə 3578,8, ezamiyyə xərcləri üzrə 1260,9, nəqliyyat xərcləri üzrə 1787,9, digər xərclər üzrə 11694,8 olmaqla, cəmi 11694,8 ABŞ dolları həcmində büdcədən yayınma halı aşkarlanıb; Mərakeşdəki səfirlikdə ezamiyyə xərcləri üzrə 737,6, digər xərclər üzrə 37,8 olmaqla, 775,4 avro büdcədən yayınma halı müəyyən edilib; Qazaxıstandakı səfirlikdə isə ezamiyyə xərcləri üzrə 198, digər xərclər üzrə 39285,1 olmaqla, 39483,1 ABŞ dolları büdcədən yayınma halı üzə çıxmışdı. Bir sözlə, ümumilikdə hər üç səfirlikdə 51 177,9 ABŞ dolları və 775,4 avro maliyyə pozuntusu aşkarlanmışdı.

Lakin Məmmədyarov XİN başçısı postundan kənarlaşdırıldıqdan sonra səfirliklərdə pozuntuların səngidiyi müşahidə edilir. İndi Almaniyadakı səfirliyimizdə aşkarlanan korrupsiya hallarının da əsasən eks-nazirin dövrü ilə bağlı olduğunu unutmayaq.

***Sənan Mirzə***

## "YAŞAT" Fondundan şəhidlərimizin məktəbli övladlarına hədiyyə

***"YAŞAT" Fondu yeni tədris ilinin başlanması ilə əlaqədar şəhidlərimizin məktəbli övladlarına dərs ləvazimatlarından ibarət hədiyyə qutuları çatdırıb.***

Bu barədə "Unikal"a Fonddan məlumat verilib.

Hədiyyə qutusuna çanta, termos, qələm qabı, hər sinifə uyğun məntiq və bədii kitablar, dəftərlər, qələmlər, xəritələr, gündəlik, pərgar dəsti, qovluq, rəsmxətt qovluğu, rəsm albomu, rəngli boya, rəngli kağız, ağardıcı, xətkeş, plastilin, plastilin qabı, bayraq stikeri, kitab altlığı, kağız yapışdırıcı, flomaster, rəngli karandaş, qayçı və pozan dəsti, qeyd kitabçası daxildir. Əlavə olaraq 1-4-cü siniflər üçün şahmat dəsti, 5-8-ci siniflər üçün qlobus, 9-11-ci siniflər üçün "Puzzle" qutuya daxil edilib.

Respublikanın bütün ərazisi üzrə ümumilikdə 996 məktəbliyə hədiyyə qutusu hazırlanıb və aidiyyəti üzrə çatdırılıb. Onlardan 558-i oğlan, 438 nəfəri isə qızdır.

# Cahangir Əsgərovdan AZAL müştərilərinə yeni zərbə

## "Economy Lite" tarifi ətrafında qalmaqal qopdu - xeyli vətəndaş ziyana düşüb!

***"Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) yeni minimal tarifi qalmaqal yaradıb.***

"Unikal"ın "marja.az" iqtisadiyyat portalına istinadən verdiyi məlumata görə, Cahangir Əsgərovun rəhbəri olduğu adıçəkilən dövlət şirkəti sentyabrın 1-dən Bakı-İstanbul və İstanbul-Bakı marşrutu üzrə onlayn aviabilet bron edərkən "Economy Lite" tarifini təqdim edib. Həmin vaxt qeyd olunub ki, bu tarifə yalnız əl yükü (çəkisi 10 kq və ölçüləri 55x40x23 sm qədər) daxildir, tarif qısamüddətli işgüzar səfərə yollananlar üçün mükəmməldir.

Lakin sözügedən tarifi təqdim etməklə AZAL-ın qiymət artırdığı müşahidə edilir. Əgər 2022-ci ilin iyul ayında ən aşağı qiymət olan "Economy Classic" tarifi ilə gediş-dönüş biletini 743 manata almaq mümkün idisə (şənbə günü 08:50-də uçuş, bazar ertəsi 23:25-də qayıdış ), bu gün eyni tarif üzrə gediş-dönüş biletini 776 manata almaq olur. Qısası, qiymət 33 manat artırılıb. Bu artımı ört-basdır etmək üçün isə yeni minimal tarif olan "Economy Lite" kəşf edilib. Hazırda "Economy Lite" tarifi üzrə gediş-dönüş biletini 725 manata almaq olar.

Düzdür, bu minimal bilet qiyməti əvvəlki minimal bilet qiymətindən 18 manat aşağı olsa da, sərnişin 23 kq pulsuz əl yükü, aviabiletin qaytarılması və uçuş tarixinin dəyişdirilməsi imkanlarını itirib. Keçmiş minimal tarif olan "Economy Classic"ə 23 kq pulsuz əl yükü daxil idi, aviabiletin qaytarılmasına, uçuş tarixinin dəyişdirilməsinə cərimə ilə də olsa icazə verilirdi.

Qeyd edək ki, bilet qiymətləri öncədən alma müddətindən, uçuş günündən və saatından asılı olaraq fərqli ola bilər. Buna baxmayaraq, əksər variantlarda qiymətlərin artdığı müşahidə edilir.

O da bildirilir ki, AZAL-ın yeni "Economy Lite" tarifi bir sıra vətəndaşları ziyana salıb. Türkiyədə təhsil alan azərbaycanlı tələbələr və valideynləri şirkətdən təxminən bir həftə öncə bilet alıblar. Lakin gözlənilməz şəkildə Türkiyənin bir neçə universiteti tədrisin başlama tarixini dəyişərək oktyabr ayının əvvəlinə keçirib. Bu səbəbdən bəzi tələbələr və valideynlər Türkiyəyə çox tez getməmək üçün uçuş tarixini dəyişmək məcburiyyətində qalıblar. Amma AZAL "Economy Lite" tarifində uçuş tarixinin dəyişdirilməsinə icazə vermədiyindən bu tarif üzrə bilet alanlar yenidən xərcə düşməli olublar.

"Economy Lite" tarifi üzrə bilet almış zərərçəkənlərdən biri bildirib ki, sözügedən tarifdə uçuş tarixinin dəyişdirilməsinə icazə verilməməsi kobud inhisarçılıqdır: "Qiyməti "Economy Lite" tarifindən təxminən 20 manat yüksək olan "Economy Classic" tarifi üzrə uçuş tarixinin uçuşdan əvvəl 60 avro cərimə ilə dəyişdirilməsinə icazə verilir. "Economy Lite" tarifində isə bu imkan yoxdur. "Economy Lite" bileti üzrə 80 avro cərimə ilə də olsa uçuş tarixinin dəyişdirilməsinə icazə verilə bilərdi. Vətəndaşın tamamilə pulunu itirməsi nə deməkdir?! Başa düşdük, 18 manat ucuz bilet satmaq üçün 23 kq pulsuz baqaj imkanını vermirsiniz, amma cüzi qiymət fərqinə görə uçuş tarixinin dəyişdirilməsinə icazə verilməməsi ədalətsiz hərəkətdir, bu kobud inhisarçılıq əlamətidir. Bazara nəzarət edən qurumlar daha çox kiçik sexləri, marketləri, mağazaları cərimələməklə məşğuldurlar. İri şirkətlərin haqsız şərtlərinə göz yumurlar".

AZAL isə bildirir ki, bilet alarkən "Economy Lite" tarifində qaydalar qeyd olunur. Başqa sözlə, Cahangir Əsgərovun rəhbəri olduğu şirkət özünün ağır şərtini vətəndaşa diqtə edir.Hesab olunur ki, bütün bunları nəzərə alaraq istehlakçıların hüquqlarına cavabdeh olan dövlət qurumu, bir sıra dövlət şirkətinin, o cümlədən AZAL-ın tariflərini araşdırmalı, ədalətsiz, vətəndaşa ziyan vuran şərtlərin ləğvi üçün göstəriş verməlidir.



"Unikal" onu da xatırladır ki, Azərbaycan hökumətinin bu il mayın 31-də "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" yaydığı hesabata əsasən bilet qiymətlərinin hədsiz baha olmasına baxmayaraq, AZAL ötən ili maliyyə itkisi ilə başa vurub. Hesabatda bu dövlət şirkətinin 2021-ci ildə yaranan 34.8 milyon manatlıq dövlət zəmanətli borcunun Təminat Fondu tərəfindən ödənildiyi qeyd olunub.

Dövlət büdcəsindən subsidiya da alan AZAL pandemiya zamanı və ondan əvvəlki il də zərərlə işləyib. Şirkətin 2019 və 2020-ci illər üzrə açıqladığı maliyyə hesabatına əsasən şirkət həmin illəri müvafiq olaraq 78 milyon 770 min və 76 milyon 415 min manat xalis zərərlə başa vurub.

İndi belə çıxır ki, bahalı bilet qiymətlərinə baxmayaraq zərərlə işləyən və zərəri hər il daha da artan AZAL bunu vərdişə çevirib - vətəndaşı ziyana salmağı öz "iş prinsipinə" çevirib. Özü də nəinki cəmiyyətin, ekspertlərin, medianın, elə millət vəkillərinin də çoxsaylı narazılığına, etirazına, tənqidlərinə baxmayaraq!

Daha anlaşılmaz olan isə odur ki, AZAL-da Müşahidə Şurası yaradıldıqdan sonra ictimaiyyətdə Cahangir Əsgərovun qiymət soyğunçuluğuna son qoyulacağına dair ciddi ümidlər yaranmışdı, lakin aradan keçən müddətdə həmin ümidlər, gözləntilər təəssüf ki, doğrulmadı, əksinə, adıçəkilən QSC ilə bağlı giley-güzarlar artan xətt üzrə davam edir...

***Sənan Mirzə***




# "DYP əməkdaşları məni döyüb" - "Zerkalnı Əliyar"

***Bakıda dəfələrlə qaydaları pozduğuna görə sürücülük hüququna məhdudiyyət qoyulan 10-MM-100 dövlət qeydiyyat nişanlı "Toyota Prado" markalı avtomobilin sürücüsü, "Zerkalnı Əliyar" ləqəbi ilə tanınan 77 yaşlı Əliyar Dadaşov Baş Dövlət Yol Polisi İdarəsində ona qarşı fiziki zorakılıq tətbiq olunduğunu iddia edib.***

Əliyar Dadaşov "Unikal"a müraciətində bildirib ki, iki gün öncə "Toyota Prado" markalı avtomobilini texniki baxışdan keçirmək üçün evakuatorla Baş Dövlət Yol Polisi İdarəsinə aparıb: "Maşını texniki baxışdan keçirərkən nömrəni də dəyişmək qərarına gəldim. Nömrə söküldü, yenisi verilməli idi. Mən nömrəni əlimdə tutmuşdum. Həmin zaman BDYPİ-nin əməkdaşı, polis kapitanı Rüstəm İsmayılov mənə yaxınlaşdı və avtomobilin cərimə meydançasına aparılmalı olduğunu bildirdi. Mən bunun səbəbini soruşduqda isə polis kapitanı əlimdə tuduğum nömrəni məndən zorla almağa çalışdı. Nəticədə mənim qoluma xəsarət yetirdi. Paltarlarım qana bulaşdı. Mən 1-ci qrup əliləm. Hesab edirəm ki, əlilliyi olan, özü də yaşlı bir adama qarşı zorakılıq edən polis əməkdaşı cəzalandırılmalıdır. Bundan əlavə, mənim avtomobilimi də qanunsuz olaraq cərimə meydançasında saxlayırlar. Sürücülük hüququm məhdudlaşdırılsa da, avtomobili sürmək üçün etibarnaməsi olan adam maşını "ştrafnoy"dan çıxarmalıdır. Lakin DYP əməkdaşları buna da icazə vermirlər".

Şikayətçi iddia edir ki, bu mübahisə və ona qarşı edilən zorakılıq 10-MM-100 nömrə nişanı ilə bağlıdır:

"Mən bilirəm ki, bu işin arxasında Baş Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat-İmtahan İdarəsinin rəis müavini Afiyəddin Leysanov dayanır. Onun məqsədi 10-MM-100 nömrəli dövlət qeydiyyat nişanını mənim əlimdən almaqdır. Ümid edirəm ki, mənə qarşı zorakılıq göstərən polis əməkdaşı cəzalandırılacaq və avtomobilin cərimə meydançasından çıxarılması üçün müvafiq göstəriş veriləcək", - deyə o əlavə edib.

Qeyd edək ki, iddia ilə bağlı Baş Dövlət Yol Polisi İdarəsinə göndərdiyimiz sorğuya cavab verilmədi.

***Murad İbrahimli***

# Qanunsuz ov edən qohumlar saxlanıldı



***Zaqatala Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlər zamanı rayonun Uzunqazmalar kəndi ərazisində qanunsuz ov edən şəxslər saxlanılıb.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Şəki regional qrupundan məlumat verilib. Bildirilib ki, araşdırma zamanı onların rayon sakinləri, qohumlar - İlqar Bayramovla Bəxtiyar Musayev olduqları müəyyən edilib. Həmin şəxslərdən müvafiq sənədləri olmayan 2 ov tüfəngi və həmin silaha aid patronlar, eləcə də ovladıqları çöl heyvanının əti aşkar edilərək götürülüb.

İ.Bayramov və B.Musayev barəsində toplanmış materiallar hüquqi qiymət verilməsi üçün rayon məhkəməsinə göndərilib.



# DSX şəhidlərin siyahısını açıqladı

***Ermənistan silahlı qüvvələrinin ölkəmizin ərazisinə və suverenliyinə qarşı təhdidinin qarşısının alınması zamanı Dövlət Səhəd Xidmətinin adları qeyd olunan hərbi qulluqçuları şəxsi igidlik və şücaət göstərib, düşmənə qarşı qəhrəmancasına vuruşaraq şəhid olublar.***

"Unikal" DSX-nin şəhidlərinin siyahısını təqdim edir:

kapitan Mehbalı Fərid Kəmaləddin oğlu;
baş gizir Məmmədov Azər Mustafa oğlu;
baş gizir Məmmədov Nahid Hüseynağa oğlu;
kiçik gizir Nəsirov Ülvü Əsədulla oğlu;
kiçik gizir Rüstəmov Fərid Nofəl oğlu;
kiçik gizir Babazadə Elşən Sahib oğlu;
baş çavuş Rəhimov Təbriz Rəhim oğlu;
baş çavuş Sadıxov Şəmistan Əbdülağa oğlu.

# Polis Binəqədi və Biləcəridə əməliyyat keçirdi: 24 nəfər saxlanıldı

***Binəqədi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən növbəti əməliyyat nəticəsində paytaxt ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilən külli miqdarda narkotik vasitələrin satışını və paylanmasını təşkil edən dəstə üzvləri saxlanılıblar.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, aaxil olmuş əməliyyat məlumatı əsasında keçirilən tədbir zamanı dəstə başçısı Mahir İsayev, onun tanışları Lətif İsmayılov, Araz Həsənov və Niyazi Muradəliyev tutularaq istintaqa təqdim ediliblər. Bu şəxslərin üzərindən və yaşadıqları evlərdən 20 kiloqrama heroin və 5 kiloqramdan artıq psixotrop maddə metamfetamin aşkar edilib. Araşdırma zamanı müəyyən edilib ki, Mahir İsayev əvvəlcə "instagram" sosial şəbəkəsində xarici ölkələrdən birində yaşayan narkotacirlə tanış olub. Onun narkokuryerlik təklifi ilə razılaşan saxlanılan şəxs daha sonra bu işə öz tanışlarını da cəlb edib. Dəstə üzvləri qaçaqmalçılıq yolu ilə ölkəyə göndərilən narkotik vasitələri Astara rayonunda əldə edəndən sonra satmaq məqsədi ilə paytaxt ərazisinə gətiriblər, Faktla Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb. Saxlanılan şəxslərin hər biri barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Bundan başqa Binəqədi rayonu, xüsusən Biləcəri qəsəbəsi ərazisində son 5 gün ərzində narkotik vasitələrin qanunsuz dövriyyəsini həyata keçirən şəxslərə qarşı keçirilən əməliyyatlar zamanı əlavə olaraq 20 nəfər tutularaq istintaqa cəlb edilib. Saxlanılanlar Binəqədi rayonunda narkotik maddələrin satışını təşkil edən şəxslər olublar. Onlardan külli miqdarda müxtəlif növ narkotik vasitə və psixotrop tərkibli həblər aşkar olunub.

Saxlanılanların cinayət əlaqələrinin müəyyən edilməsi, həmçinin Binəqədi rayonu ərazisində narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan digər şəxslərin tutulması istiqamətində polis əməkdaşları tərəfindən mübarizə tədbirləri davam etdirilir.

# Avropa azərbaycanlıları Ermənistanın hərbi təxribatına etiraz etdi

***Avropa azərbaycanlıları Ermənistanın hərbi təxribatına etiraz edib.***



Diasporla İş üzrə Dövlət Komitəsindən "Unikal"a verilən məlumata görə, Ermənistan silahlı qüvvələrinin Azərbaycanla dövlət sərhədində törətdiyi təxribat Avropada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının etirazına səbəb olub.

İtaliyada yaşayan və fəaliyyət göstərən Azərbaycan icması Ermənistan silahlı qüvvələri bölmələrinin 12 sentyabr 2022-ci il tarixində gecədən başlayaraq törətdiyi genişmiqyaslı təxribatla əlaqədar yerli və beynəlxalq ictimaiyyətə müraciət edib.

Azərbaycan-İtaliya Birliyinin sədri Fərid Abbasovun imzası ilə yayılan bəyanatda Ermənistanın hərbi təxribatı barədə ətraflı məlumat verilib, bu təcavüzün səbəblərinə diqqət cəlb edilib. Baş vermiş təxribat, qarşıdurma və itkilərə görə bütün məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyü nəzərə çatdırılıb. Ermənistanın təcavüzkar siyasətinin beynəlxalq hüquq normalarına, bölgədə aparılan normallaşma və sülh prosesinə tamamilə zidd olduğu bildirilib. Azərbaycanın işğaldan azad edilmiş bu ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri apardığı bir zamanda məhz Ermənistanın hərbi təxribata yol verməsi bu prosesə hər vəchlə mane olmasının növbəti bariz nümunəsi kimi qiymətləndirilib: "Biz, İtaliyada yaşayan Azərbaycan icması, dünya birliyindən bu kimi halların bir daha baş verməməsi üçün beynəlxalq hüquq müstəvisində əməli addımların atılmasını, eyni zamanda Ermənistanın revanşizm ideyalarına son qoyulması və sülhə dəvət edilməsi istiqamətində səylərin artırılmasını tələb edirik".

Niderlandda fəaliyyət göstərən Azərbaycan-Niderland "Odlar Yurdu" Cəmiyyəti də Ermənistan silahlı qüvvələri bölmələrinin 12 sentyabr 2022-ci il tarixində gecədən başlayaraq törətdiyi genişmiqyaslı təxribata kəskin etirazını bildirib. Cəmiyyətin sədri Frəngiz Bağırovanın imzası ilə yerli və beynəlxalq ictimaiyyətə ünvanlanan bəyanatda Ermənistanın beynəlxalq hüquq normalarına, Cənubi Qafqaz bölgəsində normallaşma və sülh prosesinə zidd olan hərbi cinayəti barədə ətraflı məlumat verilib.

Ermənistan silahlı qüvvələrinin Azərbaycanla dövlət sərhədində törətdiyi təxribata Macarıstanda yaşayan soydaşlarımız da etiraz edib. Belə ki, Macarıstanın Azərbaycan icması Ermənistan silahlı qüvvələri bölmələrinin 12 sentyabr 2022-ci il tarixində gecədən başlayaraq törətdiyi genişmiqyaslı təxribatla əlaqədar yerli və beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb. Budapeşt şəhərində fəaliyyət göstərən Azərbaycan Evinin yaydığı bəyanatda Ermənistanın növbəti dəfə törətdiyi təcavüz barədə ətraflı məlumat verilib. Beynəlxalq hüquq normalarına, Cənubi Qafqaz bölgəsində normallaşma və sülh prosesinə zidd olan hərbi təxribatın səbəblərinə diqqət cəlb edilib.

Təcavüzkar Ermənistanın hərbi təxribatına Almaniyanın Hannover şəhərində yaşayan Azərbaycan icması sərt etiraz edib. Alman-Azərbaycan Dostluq Assosiasiyasının yerli və beynəlxalq ictimaiyyətə ünvanlanan bəyanatında ünvanlanan məktubda hərbi təxribat nəticəsində baş verən itkilər barədə ətraflı məlumat verilib. Ermənistanın beynəlxalq hüquq normaları ilə bir araya sığmayan bu təcavüzkar hərəkətinin səbəblərinə diqqət cəlb edilib.

Fransanın Nant şəhərində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Assosiasiyası Ermənistan silahlı qüvvələri bölmələrinin 12 sentyabr 2022-ci il tarixində gecədən başlayaraq törətdiyi genişmiqyaslı təxribata sərt etirazını bildirib. Assosiasiyanın yerli və beynəlxalq ictimaiyyətə ünvanladığı bəyanatda Ermənistanın Cənubi Qafqaz bölgəsində normallaşma və sülh prosesi ilə bir araya sığmayan növbəti təcavüzü barədə ətraflı məlumat verilib, bu hərbi cinayətin səbəblərinə diqqət cəlb edilib.

# MİDA "güzəştli mənzil"ləri satışa çıxarır

***Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə 815 güzəştli mənzili satışa çıxarır.***



"Unikal" xəbər verir ki, qiymətlər 33-92 min manat arasında dəyişir. Mənzillər Yasamal rayonu, Xarici dairəvi yolu, 6 ünvanında yerləşir.

Mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərindən "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Xatırladaq ki, daha öncə MİDA-nın 30.03.2022-ci il tarixində keçirilən mənzil seçiminin nəticələri ləğv edilmişdi. Buna 442 mənzilin 4-5 saniyə ərzində satılması səbəb olmuşdu. Araşdırmalardan sonra kompüter proqram təminatlarından istifadə edərək mənzillərin seçimi prosesinə müdaxilə edən altı şəxs saxlanılmışdı. Faktla bağlı cinayət işi açılmışdı.

MİDA-nın məlumatına görə, Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu "6" ünvanında yerləşən Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsinin 4 saylı binası üzrə 64, 5 saylı binası üzrə 53, 6 saylı binası üzrə 44, 9 saylı binası üzrə 44, 10 saylı binası üzrə 64, 11 saylı binası üzrə 54, 12 saylı binası üzrə 44, 14 saylı binası üzrə 21, 17 saylı binası üzrə 44, 18 saylı binası üzrə 44, 19 saylı binası üzrə 41, 20 saylı binası üzrə 8, 21 saylı binası üzrə 44, 22 saylı binası üzrə 39, 23 saylı binası üzrə 39, 24 saylı binası üzrə 24, 25 saylı binası üzrə 72 və 26 saylı binası üzrə 72 mənzil satışa çıxarılıb.

## 6.3.19. uşaq və gənclərin fiziki və mənəvi inkişafı

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Uşaq və gənclərin milli ruhda tərbiyəsi məktəbdən başlamalıdır

### Nadir İsrafilov: "Bunun üçün biz uşaqların milli ruhda tərbiyəsinə, vətənpərvər qazilərimizlə, qəhrəmanlarımızla görüşünə şərait yaratmalıyıq. Belə gənclərin həyatı gələcək nəsilə örnək olmalıdır".

***Uşaqlar, gənclər ölkənin gələcəyi olduğundan, onların milli ruhda tərbiyəsi vacib amildir. Ordumuz nə qədər qüdrətli, hazırlıqlı olsa da, orduda vətənpərvərlik hissi yüksək olan şəxslərin xidmət etməsi dövlətin ərazi bütövlüyünün qorunması baxımından əhəmiyyətlidir. Sentyabrın 12-dən 13-ə keçən gecə erməni təxribatı nəticəsində 71 hərbçimizin şəhid olması ordumuzda vətənpərvərlik hissinin yüksək olduğundan xəbər verdi.***

Həm 44 günlük vətən müharibəsində, həmçinin də son döyüşlərdə Azərbaycan ordusunun düşmənə layiqincə cavab verməsi Azərbaycan əsgərinin öz torpaqlarını canı və qanı bahasına qorumağa hazır olduğunu bir daha sübut etdi.

Bəzilərimizə hərbçi həyatı çətin görünsə də, onların bu peşəni seçməsində ailədə, məktəbdə aldıqları tərbiyənin mühüm rolu var.

Təhsil eksperti Nadir İsrafilov deyir ki, uşaqların gələcəkdə peşə seçməsində yaxşı nümunələr rol oynayır: "Azərbaycan igidlər oylağıdır. Tarixən Azərbaycan xalqı öz qəhrəmanları ilə fəxr edib. Həmin qəhrəmanlar xalqımızın qürur yeridir. Onların şücayəti hər zaman təbliğ olunub, kitablara salınıb. Bu ona görə lazımdır ki, gələcək nəsil öz qəhrəmanlarını tanımaqla yanaşı, onların həyatından örnək götürsün. Bu gün qəhrəman şəhidlərimizin hər birinin həyatı gələcək nəsilə örnəkdir. Biz təkcə tarix kitabında deyil, bütün dərsliklərdə qəhrəmanlarımızı, torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan oğullarımızı təbliğ etməliyik. Onların həyatı, vətənsevərliyi hər bir gəncdə milli ruhu gücləndirir".



N. İsrafilov deyir ki, ideoloji iş məktəblərdə təhsillə yanaşı aparılmalıdır. Onun sözlərinə görə, gənclərin, uşaqların vətənpərvər ruhda tərbiyəsi dövlətin əsas siyasi xəttinə çevrilməlidir: "Biz çalışmalıyıq ki, hər bir uşaq, hər bir gənc vətənini sevsin. Bunun üçün biz uşaqların milli ruhda tərbiyəsinə, vətənpərvər qazilərimizlə, qəhrəmanlarımızla görüşünə şərait yaratmalıyıq. Belə gənclərin həyatı gələcək nəsilə örnək olmalıdır".

N. İsrafilov bildirir ki, uşaq və gənclərin vətənpərvərlik, azərbaycançılıq ideyaları əsasında, tariximizə, mədəni irsimizə, adət-ənənələrimizə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması dövlətin gənclər siyasətinin əsas prinsiplərini özündə əks etdirir: "Azərbaycan dövlətinin əsas məramı gənc nəslin xalqımıza layiq şəkildə, sağlam, güclü, vətənpərvər ruhda tərbiyəsidir. Hazırda uşaqların və gənclərin fiziki və mənəvi inkişafı, onların vətənə məhəbbət ruhunda tərbiyə edilməsi, zərərli vərdişlərdən uzaqlaşmasına böyük ehtiyac var".

N. İsrafilov onu da qeyd edib ki, xüsusilə də orta məktəb dövründə yeniyetmələrin, uşaqların, gənclərin fiziki və mənəvi inkişafının təməli qoyulur. Ona görə bu işdə pedaqoji heyətin üzərinə böyük yük düşür.

Qeyd edək ki, "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı çərçivəsində bu məsələ öz əksini tapıb. Gənclər və İdman Nazirliyindən bildirdilər ki, bu illərdə Azərbaycan tarixində müstəsna xidmətləri olmuş şəxsiyyətlərin, Azərbaycanın ərazi bütövlüyü uğrunda şücaət göstərmiş döyüşçülərin, o cümlədən Milli Qəhrəmanların gənclər arasında tanıdılması ilə bağlı layihələr icra olunub. Həmçinin "Gənclər Evləri"ndə interaktiv vətənpərvərlik guşələri yaradılıb. Gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsinin aktual məsələləri üzrə müşavirələrin, konfransların, dəyirmi masaların, mədəni-kütləvi və digər tədbirlərin, telelayihələrin həyata keçirilməsi, vətənpərvərlik mövzusunda əyani vəsaitlərin hazırlanması işləri həyata keçirilib. Həmçinin proqram əsasında yeniyetmə və gənclərin hərbi xidmətə həvəsləndirilməsi və ordu sıralarına yolasalma, eləcə də ehtiyata buraxılmış müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının qarşılanması mərasimlərinin təşkili məqsədi ilə mədəni-kütləvi tədbirlərin keçirilməsi işləri görülüb.

Ümumilikdə Dövlət Proqramında gənclərin azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında vətəndaşlıq və vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, gənclər arasında milli-dini dözümlülük, sülhsevərlik, humanizm dəyərlərinin təbliğ edilməsi kimi məsələlər öz əksini tapıb. Hərbi-idman oyunlarının keyfiyyəti və kütləviliyinin artırılması, keçirilməsi üçün şəraitin yaradılması, hərbi xidmətdə olan gənclərin mənəvi-psixoloji durumunun yüksəldilməsinə və onların asudə vaxtının səmərəli təşkilinə kömək məqsədi ilə hərbi hissələrdə müxtəlif tədbirlərin keçirilməsi də bu qəbildəndir. Gənclərin sağlam həyat tərzi -narkomaniya, tütün, alkoqol və digər psixoaktiv maddələrin mənfi təsiri, infeksion və qeyri-infeksion xəstəliklərin profilaktikası, sağlam qidalanma ilə bağlı maarifləndirmə tədbirlərinin keçirilməsi, biliklərinin artırılması və davranışlarının təkmilləşdirilməsi istiqamətində də işlər aparılır.

Qeyd edək ki, Prezident İlham Əliyev də öz çıxışlarında uşaq və gənclərin milli ruhda tərbiyəsinin əhəmiyyətini vurğulayıb: "Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir və bu əməliyyatlarda iştirak edənlərin mütləq əksəriyyəti gənclərdir. Biz bu əməliyyat nəticəsində uzun illər ərzində işğal altında qalan torpaqları işğalçılardan azad etdik. O torpaqlarda - Lələtəpədə, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının dağlarında Azərbaycan bayrağını ucaltdıq. Bu, böyük tarixi qələbədir. Bu qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq, Azərbaycan əsgəri, Azərbaycan zabiti Vətən uğrunda, torpaq uğrunda canından keçməyə hazırdır".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Şəhid Coşqun Zülfiyev son mənzilə yola salındı

***Sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törədilən genişmiqyaslı təxribatın qarşısı alınarkən Xəzər rayonundan Şəhid olmuş hərbiçimiz MAXE Zülfizadə Coşqun Ədail oğlunun nəşi yaşadığı Binə qəsəbəsinə gətirilərək Silahlı qüvvələrin hərbi orkestrinin müşayəti və əsgərlərin yaylım atəşi altında Şəhidlər Xiyabanında torpağa tapşırılıb.***

"Unikal" xəbər verir ki, dəfn mərasimində Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov, Millət vəkilləri Soltan Məmmədov, Rauf Əliyev, YAP Xəzər Rayon təşkilatının sədri Namiq Əhmədov, Müdafiə Nazirliyinin hərbçiləri, rayonun hüquq mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri və şəhidin yaxınları iştirak ediblər.

Mərasimdə çıxış edən Xəzər RİH Başçısı Elşən Salahov şəhidin ailəsinə baş sağlığı verərək torpaqlarımızın müdafiəsi zamanı şəhid olanlarla qürur duyduğunu, onların daim xatirələrdə yaşayacağını vurğulanıb.

Dəfn olunduqdan sonra Azərbaycanın müqəddəs üçrəngli bayrağı şəhidin atası Ədail Zülfiyevə təqdim edilib.

Qeyd edək ki, 27.12.1998-ci il təvəllüdlü Şəhidimiz Zülfüzadə Coşqun Lerik rayonunun Nuravod kəndində anadan olub.

Torpaqlarımızın ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla Şəhidlik zirvəsinə ucalmış bütün hərbi qulluqçularımıza Allahdan rəhmət diləyir, onların ailələrinə, yaxınlarına dərin hüznlə başsağlığı veririk!

Şəhidlərimizin qanı yerdə qalmadı!

## Hərbçidən pul tələb edən sayt rəhbəri həbs edildi

***Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən "realxeber.org" internet saytının və eyni adlı "YouTube" kanalının idarəçisi Zaur Qafarovun hərbi qulluqçudan barəsində həqiqətə uyğun olmayan rüsvayedici məlumatları yayma hədəsi ilə pul tələb etməsi barədə Dövlət Təhlükəsizli Xidmətindən daxil olmuş məlumat əsasında əməliyyat-axtarış tədbirləri keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluq və Dövlət Təhlükəsizlik xidməti birgə məlumat yayıb.

Bildirilib ki, əməliyyat-axtarış tədbirləri ilə Zaur Qafarovun video-foto montaj vasitəsi ilə İkinci Qarabağ Müharibəsi iştirakçısı olmuş hərbi vəzifəli şəxs barəsində sonuncunun guya hərbi qulluqçu adına yaraşmayan işlərlə məşğul olmasına dair nüfuzdan salan və həqiqətə uyğun olmayan video-çarx hazırlayaraq idarə etdiyi media platformalarına ictimaiyyətə açıq şəkildə qəsdən yerləşdirməsinə, həmin videogörüntülərin daha geniş ictimai kütlə arasında yaymaqla hədələyib bunun müqabilində sonuncudan pul tələb etməsinə əsaslı şübhələr müəyyən edilib.

Toplanmış ilkin sübutlar əsasında Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmaqla, Zaur Qafarova həmin Məcəllənin 182.1-ci (hədə-qorxu ilə tələb etmə) maddəsi ilə ittiham elan edilmiş və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Hazırda təqsirləndirilən şəxsin eyni xarakterli əməllərindən zərər çəkən digər şəxslərin müəyyən edilməsi istiqamətində istintaq davam etdirilir.



## Bakının işğaldan azad edilməsindən 104 il ÖTÜR

***Bakının işğaldan azad edilməsindən 104 il ötür.***

"Unikal" xəbər verir ki, Azərbaycan 1918-ci il mayın 28-də müstəqilliyini elan etdikdən sonra ölkə iki yerə parçalanıb, bolşevik-daşnak birləşmələrinin qurduğu Bakı Xalq Komissarları Soveti paytaxtda hakimiyyəti ələ keçirib.

Bolşevik-daşnak silahlı birləşmələri Azərbaycanın nəzarətdə saxladıqları bölgələrində yerli əhaliyə qarşı soyqırımı törədib, insanları kütləvi şəkildə qətlə yetiriblər. İyun ayından bolşeviklərin silahlı dəstələri Azərbaycanın qərb rayonlarını öz təsirləri altına almaq üçün genişmiqyaslı əməliyyatlara başlayıb. Şamaxı istiqamətində irəliləyən bolşevik-daşnak birləşmələri yol üzərindəki bütün Azərbaycan kəndlərini çapıb-talayıb, dinc əhalini məhv ediblər. Vəziyyəti nəzərə alan Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusu Azərbaycan Xalq Cümhuriyyətinin köməyinə göndərilib.

Qafqaz İslam Ordusu və Azərbaycanın yeni təşkil olunan Milli Ordu birləşmələri Göyçay yaxınlığında bolşevik-daşnak birləşmələrini məğlub edərək Bakıya doğru irəliləyib. Paytaxta doğru bir neçə istiqamətdə hərəkət edən ordu birləşmələri Şamaxı, Kürdəmir və digər yaşayış məntəqələrini işğaldan azad ediblər. Sentyabrın 15-də günorta saatlarına kimi davam edən döyüşlərdən sonra Qafqaz İslam Ordusu Bakı şəhərini işğaldan azad edilib və bir gün sonra indiki Sahil bağında Qafqaz İslam Ordusu və Azərbaycan qoşunlarının rəsmi paradı keçirilib.

Xatırladaq ki, Bakıda xilaskar türk əsgərinin şərəfinə abidə ucaldılıb, Şamaxıda isə şəhid olmuş türk əsgərlərinin qəbirüstü abidəsi götürülüb.

## Atasının adını daşıyan şəhid oğlu 1-ci sinfə getdi

***Azərbaycanda yeni dərs ili başlayıb.***

"Unikal" xəbər verir ki, ilk dəfə məktəbə gedən uşaqlar arasında şəhid övladları da var.



Onlardan biri 2016-cı ilin Aprel döyüşlərində şəhid olan zabitimiz, leytenant Qabil Orucəliyevin oğlu Qabildir. Atası şəhid olmazdan 4 gün əvvəl, 2016-cı ilin 29 mart tarixində dünyaya gəlmiş balaca Qabil atasının ad-soyadını yaşadır.

Bu gün həmçinin, şəhid leytenant Qabil Orucəliyevin doğum günüdür.

Qeyd edək ki, Q.Orucəliyev ölümündən sonra göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Prezidentinin sərəncamı ilə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif edilib.

***Anar Kəlbiyev***

# Kitabxana mənim ikinci evimdir

## Nailə Əsgərova: "Hamımız vəzifəmizdən, tutduğumuz mövqedən asılı olmayaraq kitabxanalara kömək etməli, bu işdə sponsorları cəlb etməliyik"

***Hətta daş dövründə belə insanlar öz tarixlərini daşlara, sonra papiruslara köçürürdülər. Hər bir hadisəni yaddaşlarda saxlamaq isə o vaxt qeyri-mümkün idi. Sivilizasiya artıqca kitab çapı da nəşr olundu və bu nəşrlər bir ölkədən digərinə adladı. Bütün dünya kitabların vacibliyini və əhəmiyyətini başa düşüb, yeni-yeni kitabxanalar açdılar və qiymətli kitabların toplanmasına başladılar.***

Kitabxana insana nə verir? Elm, bilik, savad, intelektin artırılması, gələcəyə körpü, ən başlıcası isə oxucularla ünsiyyətin qurulmasıdır.

Belə ünsiyyətə mən Sumqayıt şəhər mərkəzi kitabxanasında çox rast gəlmişəm. Burada mənə lazım olan ədəbiyyatdan savayı, yeni nəşr olunmuş, insanı düşündürən və maraqlandıran kitablar da təklif edirlər. Onu da deyim ki, heç bir vaxt əlimə aldığım kitabdan ayrılmamışam və o, məni mənən zənginləşdirib, maraq dairəmi artırıb, buna görə də kitabxana işçilərinə həmişə minnətdar olmuşam. Kitaba qiymət verən hər bir ziyalı bilir ki, sözün təsiri böyükdür.

Tarixdən bir misal çəkmək istəyirəm. Sankt-Peterburqda Puşkinə heykəl qoyanda açılışa Rusiyanın mötəbər adamları, qraflar, knyazlar, yazıçıları, şairləri, ziyalıları toplaşır. Müxtəlif çıxışlar olur. Söz Dostoyevskiyə verilir. O, Puşkinin yaradıcılığından, ana dilinin saflığı uğrunda mübarizə apardığından elə təsirli danışır ki, 25 il küsülü olan iki knyaz əl-ələ verib barışırlar.

Budur sözün qüdrəti, Mərkəzi kitabxananın xidmət şöbəsinin müdiri Nailə xanım Əsgərova haqqında söhbətimiz təxminən bu yönümdə getdi. Onun da maraqlı bir misalı oldu. İstərdim ki, oxucular da bu faktın və söz qüdrətinin şahidi olsunlar. Nailə xanım dedi:

-Eyruz müəllim, bir hadisə haqqında mən də danışmaq istəyirəm. Təxminən 20-25 il bundan əvvəl Sumqayıtda bir qadını tanıyırdım. Təxminən 30-35 yaşı olardı. Ürək ağrılarından əziyyət çəkirdi. Bir gün xəstəxanaya düşür. Gözləri daima yumulu olur. Axşam anası yanına gəlir. Stul çəkib qızının yanında əyləşir. Sonra L.Tolstoyin "Anna Karenina" romanının müəyyən bir parçasını ucadan oxumağa başlayır. Bir neçə dəqiqədən sonra xəstənin gözləri açılır və o, anasını görüb deyir: - Oxu ana, artıq özümü yaxşı hiss edirəm.

Görürsünüzmü, kitabın, sözün gücünü.

Tarixdə belə hadisələrə çox rast gəlmək olar. Sumqait kitabxanaçıları ilə ünsiyyətdə olanda hər dəfə özüm üçün nəsə bir məlumat, informasiya alıram. Bu da bir jurnalist kimi gələcək yazılarımda köməyimə gəlir.

Nailə Əsgərova da çox savadlı, zəngin məlumatlı bir xanımdır. Öz peşəsini ürəkdən sevir, onun vurğunudur. Düzdür gənclik illərində ibtidai sinif müəllimməsi olmaq arzusunda idi. Lakin qismət onu Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq fakultəsinə



gətirib çıxartdı. Ali təhsil aldıqdan sonra 1990-cı ildə Sumqayıt şəhər mərkəzi kitabxanasının "kitabla işləmə" şöbəsində təxminən 6-7 il çalışdı. Sonra biblioqrafiya şöbəsinə keçdi. 1998-ci ildən isə "Oxu zalı"nın müdiridir. 24 ildir ki, bu vəzifədə çalışır. İşə həvəslə gəlir, həvəslə çalışır. Oxucularla ünsiyyəti səmimidir.

***-Tapılmayan kitabları necə əldə edirsiniz?***

-Çətinliklə.

***-Oxucuya kömək edə bilirsinizmi?***

-Çalışıram. Elə anlar olur ki, kitabxanada olmayanda evimdən gətirirəm. Təki oxucu narazı qalmasın. Olmayanda kitabxana filiallarına müraciət edirəm, onların bizə köməyi böyük olur. Ümumiyyətlə qarşılıqlı əməkdaşlıq həmişə öz bəhrəsini verib.

Rəhbərlik Nailə xanımın işindən razılıq edir, oxucuların özü də. Kitabxana onun gündəlik iş yeri olsa da, buranı özünün ikinci evi sayır Tabeçiliyində çalışan baş mütəxəssis Sevda Məhəmmədova, böyük mütəxəssislərdən Sabirə Abbasova və Sima Quliyeva, kiçik mütəxəssis Leyla Bağırova onlara tapşırılan işin öhdəsindən layiqincə gəlirlər. Gündəlik oxucularla ünsiyyətdə olmaq, onlara mədəni xidmət göstərmək, onları yormur, əksinə, ruhlandırır. Hər biri qeyd edir ki, mərkəzi kitabxana bizim doğma evimizdir, oxu zalı isə sanki bir xəzinədir. Axı bura gələnlər vaxtlarını boş yerə keçirməyə gəlmirlər. Dünya xəzinəsinin qapılarını açır və özlərinə lazım olan sirlərlə buranı böyük məmnuniyyətlə tərk edirlər.

Nailə xanım uğurları ilə yanaşı problemlərindən də danışdı. Əvvəlki illərə nisbətən kitab az alınır. Ali təhsil məktəblərinin tələbələrin tələbatını çox vaxt ödəyə bilmirlər. Beləki, texniki ədəbiyyat azlıq təşkil edir. Sözsüz ki, bu haqda ciddi düşünmək lazımdır.

Hamımız vəzifəmizdən, tutduğumuz mövqedən asılı olmayaraq kitabxanalara kömək etməli, bu işdə sponsorları cəlb etməliyik. Bu yaxınlarda iş adamı Akif Şahbazlı kitabxanaya təmənnasız olaraq 200-dən çox kitab bağışlayıb. Bu gözəl bir təşəbbüsdür. İmkanlı adamlar da öz töhfəsini verməlidirlər, axı hər biri vaxtı ilə bu kitabxananın xidmətindən istifadə ediblər.

-Kitabxanada oxucular təkcə mədəni xidmətlə kifayətlənmirlər, - deyə Nailə xanım sözünə davam etdi: - Burada maraqlı insanlarla, alimlərlə, yazıçı və şairlərlə müntəzəm görüşlər keçirilir. Nəriman Həsənzadə, Vaqif Səmədoğlu, Fikrət Qoca Baba Vəziroğu, Varis və başqaları oxucular tərəfindən rəğbətlə qarşılanıb.

***-Özünüz mütaliə edirsinizmi?***

-Əlbəttə. Maraqlı kitabları həvəslə oxuyuram. İlyas Əfəndiyevi, Maqsud İbrahimbəyovu, O.Henrini, Balzakı daha çox sevirəm.

***-Milli musiqimizə münasibətiniz?***

-Akif İslamzadə, Şövkət Ələkpərova sevdiyim müğənnilərdəndir.

Söhbətə yekun vururuq. Burada akademik Lixaçovun bir sözü yada düşür: "Kitabxanaçılar Dövlətin şanlı-şöhrətli adamlarıdır".

Bunu Sumqayıt kitabxanaçılarına da aid etmək olar. Onlar buna layiqdirlər.

***Eyruz Məmmədov,***
***Respublikanın***
***"Əməkdar jurnalisti"***

# SİMA ilə vətəndaşlar kredit tarixçələrini daha rahat əldə edəcəklər

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "AzInTelecom" MMC tərəfindən yaradılan SİMA - bulud əsaslı yeni nəsil rəqəmsal imzanın tərəfdaş qurumların sistemlərinə inteqrasiya prosesi davam edir. Növbəti inteqrasiya prosesi Azərbaycan Kredit Bürosunun (AKB) sistemi ilə reallaşıb.***

"Unikal" xəbər verir ki, tərəfdaşlığa əsasən vətəndaşlar AKB-nin yeni B2C (biznesdən müştəriyə) xidməti olan rəqəmsal tarixçə platforması - FINDOC-da qeydiyyatdan keçmək, həmçinin yaradılmış şəxsi kabinetdə müvafiq razılaşma sənədini elektron qaydada imzalamaq üçün SİMA proqram təminatından istifadə imkanı əldə edirlər.

FINDOC-un təqdim etdiyi xidmətlər bunlardır:

kredit hesabatına baxış;

skor hesabatına baxış;

kredit hesabatının PDF formatında əldə edilməsi;




kredit hesabatının Büronun rəsmi elektron poçtundan digər e-poçt ünvanına yönləndirilməsi.

Bununla da vətəndaşlar məsafə qət etmədən və zaman itkisinə yol vermədən xidmətlərdən faydalana biləcəklər.

SİMA vasitəsilə digər sahələr üzrə də elektron xidmətlərdən yararlanmaq mümkündür. Bunlara rəqəmsal dövlət, bank, bank olmayan kredit təşkilatı (BOKT), sığorta, mobil operatorlar, elektronika, məişət, TV və internet provayderlər, bir sözlə imza tətbiq olunan bütün sahələr daxildir.

Yeni nəsil rəqəmsal imzanın həm vətəndaşlar, həm də xidmət təklif edənlər üçün maliyyə xərclərinin azaldılması və vaxt itkisinin qarşısının alınması kimi üstünlükləri var. Bundan əlavə, SİMA-nın istənilən sistemə inteqrasiya oluna bilməsi, eləcə də avtomatlaşdırılma istifadəçilər üçün sürətli və istənilən sayda imzalama imkanı qazandırır.

SİMA tətbiqini mobil cihaza yükləmək və bir dəfə qeydiyyatdan keçmək kifayətdir. Rəqəmsal xidmətlərə əlçatanlığı artıran imzanın ölkəmizdə biznes proseslərini sürətləndirəcəyi gözlənilir.

SİMA ilə bağlı daha ətraflı məlumatı rəqəmsal imzanın rəsmi saytından və 157 Çağrı Mərkəzi ilə əlaqə saxlayaraq əldə edə bilərsiniz.

# Suvarma sitemləri və hidrotexniki qurğular təkmilləşdirilir

***Laçın obalarında suvarma suyunun verilişi yaxşılaşdırılıb. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, 1990-cı ildə Ağcabədi rayonu ərazisində yaradılan Laçın Suvarma Sistemləri İdarəsinin əsas vəzifə və funksiyası rayonda olan əkin sahələrini suvarma suyu ilə təmin etməkdir.***

Bu məqsədlə idarə tərəfindən hər il mütəmadi olaraq meliorativ tədbirlər davam edir. Rayonun ümumi ərazisi 31619 hektar, suvarmaya yararlı sahələr isə 18510 hektardır. Ondan 12600 hektarında kənd təsərrüfatı əkinlərindən istifadə olunur. Relyefi müxtəlif olan rayon Qar-Qar çay və Kür çayları əhatəsindədir. Suvarma suyu öz axımı ilə Qarabağ-Laçın-Qayğı kanalından və mexaniki üsulla Kür çayından qaldırılaraq əkin sahələrinə verilir. Suyun maneəsiz axınını təmin etmək üçün idarənin maşın-mexanizmləri ilə kanallarda mütəmadi olaraq lildən təmizləmə işləri aparılır.

Laçın Suvarma Sitemləri İdarəsinin balansında kollektor-dren şəbəkələri də mövcuddur. İlkin su yığıcı kanallar 10 km-ə yaxın, qapalı drenlər isə 10 km-dən uzundur. Ümumilikdə rayon üzrə suvarma kanallarının uzunluğu 349 km-dir. Bundan beton kanallar 18,7 km, boru kəməri 4 km, torpaq kanallar isə 326 km-dir. Suvarma kanalları üzərində 125 ədəd hidrotexnikiqurğu, 89 ədəd suayrıcılar mövcuddur.

Qeyd edək ki, Laçın Suvarma Sistemləri İdarəsinin balansında 17 ədəd nasos stansiya mövcuddur. 2022-ci ilin yanvar ayından etibarən nasos stansiyalar vastəsi ilə 53700 m3 su verməklə 33190 hektar əkin sahəsinin suvarılması təmin edilib.

Regionun ən böyük hidrotexniki qurğusu olan Ağstafaçay Hidroqovşağında təmir işləri aparılır. Dilqəm Şərifov bildirib ki, Ağstafaçay Hidroqovşağı regionun ən böyük hidrotexniki qurğusu sayılır. Su anbarı 1969-cu ildə tikilib. Ağstafaçay Hidroqovşağı İstismarı İdarəsinin balansında olan anbarın açılışı 1971-ci ildə Ümummilli lider Heydər Əliyevin iştirakı ilə baş tutub. Anbara su Ağstafa çayı vasitəsilə daxil olur. Anbarın həcmi 120 mln m3 -dir. 46 m dərinliyi olan anbarın üzərində tikilən bəndin uzunluğu 1980 m, hündürlüyü 50 m-dir. Hazırda anbarda cari təmir işlərinə start verilib. Bəndin uzun müddət istismar olunan beton üzlüyü təmir olunaraq bəndin dayanıqlılığı artırılır. Həmin ərazidə 200 m3 beton işinin görülməsi nəzərdə tutulub.

Anbardan su 2 ədəd Sağ və Sol Magistral kanalları vasitəsi ilə verilir. Sol Sahil Magistral kanalının uzunluğu 11 km, su buraxma qabiliyyəti isə 13 m3/san -dir. Kanal 14 min ha ərazini suvarır. Sağ Sahil Magistral kanalının uzunluğu isə 58 km, su buraxma qabiliyyəti



25m3/san-dir. Kanal 43 min ha ərazinin suvarılmasını təmin edir. Kanalların üzərində 124 ədəd müxtəlif təyinatlı hidrotexniki qurğular mövcuddur. Hər il olduğu kimi bu il də suvarma mövsümü başlamazdan öncə kanallar maşın və mexanizmlərin köməyi ilə lildən təmizlənib, hidrotexniki qurğulara baxış keçirilərək nasazlıqlar aradan qaldırılıb. Ağstafaçay Hidroqovşağı İstismarı İdarəsi texnikaları tərəfindən 2022-ci ilin əvvəlindən bu günə kimi 170 min m3 lildən təmizləmə işləri həyata keçirilib.

Qeyd edək ki, Ağstafaçay Su Anbarı qərb bölgəsinin dörd rayonuna Qazax, Ağstafa, Tovuz və Şəmkir rayonlarının əkinə yararlı 57 min ha ərazisinin suvarılmasına xidmət edir.

***Hüseyn İsgəndərov***



# Deputatlar şəhidin dəfn mərasimində iştirak etdi

***Sentyabrın 12-13-ü Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törədilib.***

"Unikal" xəbər verir ki, genişmiqyaslı təxribatın qarşısı alınarkən İsmayıllı rayonunun Talıstan kənd sakini, Azərbaycan ordusunun quru qoşunlarının zabiti, baş leytenant Bədəlov Cavidan Zaur oğlu qəhrəmancasına şəhid olub.

Sentyabrın 14-də İsmayıllı rayonunda şəhid Bədəlov Cavidan Zaur oğlunun dəfn mərasimi keçirilib. Millət vəkilləri Novruz Aslanov, Tahir Kərimli, İsmayıllı rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov və kollektivi, rayon ictimaiyyəti dəfn mərasimində iştirak edib.

Şəhid olan hərbi qulluqçuların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk.

***Allah rəhmət eləsin!***

# 29 ildən sonra Ağalı kənd məktəbində zəng çalındı

***Ermənistanın işğalından azad olunan Zəngilan rayonunun Ağalı kənd tam orta məktəbində 29 ildən sonra ilk dəfə dərs başlayıb.***

"Unikal" xəbər verir ki, ilk olaraq Azərbaycanın Dövlət Himni səsləndirilib. Daha sonra şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

Ağalıda ilk dərs günündə elm və təhsil naziri Emin Əmrullayev, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev də iştirak edib.

Qeyd edək ki, 360 şagird yerlik ikimərtəbəli məktəbdə ilk dərs "Qarabağ Azərbaycandır!" mövzusuna həsr olunub.

# Müharibədə həlak olan jurnalistlərin sayı açıqlandı

***Rusiyanın Ukraynaya işğalçı hücumu nəticəsində 39 media işçisi həlak olub.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Milli Jurnalistlər Birliyi məlumat yayıb.

Bildirilir ki, fevralın 24-dən bəri 39 jurnalist peşə borcunu yerinə yetirərkən həyatlarını itiriblər.

Milli Jurnalistlər Birliyinin rəhbəri Serhiy Tomilenkonun sözlərinə görə, ölənlər arasında "The New York Times", "Time" qəzetlərinin müxbirləri və "Fox News"un irlandiyalı fotojurnalisti də var.

***Gülayə Mecid***

# Bakıda avtomobil piyadanı vuraraq öldürüb

***Bakıda avtomobil piyadanı vuraraq öldürüb.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, hadisə sentyabrın 14-ü saat 17 radələrində paytaxtın Qaradağ rayonunun Sahil qəsəbəsi ərazisində qeydə alınıb.

Belə ki, Bakı şəhər sakini E.Cəfərov idarə etdiyi "Mercedes" markalı avtomobillə yolu keçən qəsəbə sakini Mansur İsmayılovu vurub və nəticədə piyada hadisə yerində ölüb.

Qaradağ Rayon Polis İdarəsində araşdırma aparılır.

## Bu ölkə Rusiyanın 190 milyonluq aktivlərinə həbs qoydu

***Finlandiya hakimiyyəti sanksiyalara məruz qalan rusların təxminən 190 milyon avro məbləğində aktivlərinə həbs qoyub.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, həbslər Aİ-nin sanksiyalar siyahısında olan onlarla subyektə aiddir.

Qeyd olunur ki, müsadirə olunan aktivlərin spektri genişdir: onların arasında səhmlər, bank depozitləri, sənaye xammalı, nəqliyyat vasitələri, dəmir yolu vaqonları və daşınmaz əmlak var.

***Ağarza Elçinoğlu***

## NATO-nun hərbi təlimləri başladı

***Rumıniyadakı Smirdan hərbi bazasında başlayan "Ədalət Qartalı 22.II" təlimində təxminən 700 Rumıniya, Hollandiya, Polşa, Portuqaliya, Amerika və Fransa hərbçiləri iştirak edir.***



"Unikal" xəbər verir ki, bu barədə Rumıniyanın Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Təlimlərin məqsədi müttəfiqlər arasında etimad mühitini və əməkdaşlıq keyfiyyətlərini artırmaqdır. Təlimlərə 80 texnika cəlb olunub. Sentyabrın 18-dən 23-dək davam edəcək.

## KTMT-nin baş katib Azərbaycan-Ermənistan sərhədinə gedəcək

***KTMT-nin baş katib Stanialav Zas gələn həftə Azərbaycan-Ermənistan sərhədinə gedəcək.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV-lərində məlumat yayılıb. Bildirilir ki, KTMT baş katibinə təşkilata üzv ölkələrin rəhbərlərinə ətraflı hesabatın hazırlanması üçün münaqişə zonasına getməsi təklif edilib.

***Gülayə Mecid***

## "Məhv edilən Rusiya təyyarələrinin sayı 250-yə çatıb"

***"Son sutkada Ukraynada Rusiya ordusunun 200 hərbçisi məhv edilib".***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı məlumat yayıb.

Qeyd olunub ki, bununla da müharibə başlayandan bəri Rusiyanın canlı qüvvə itkilərinin sayı 53 850-yə çatıb.

Bildirilib ki, Rusiyanın digər döyüş itkiləri 2 193 tank, 4 682 zirehli döyüş maşını, 1 295 artilleriya sistemi, 311 reaktiv yaylım atəşi sistemi, 167 hava hücumundan müdafiə sistemi, 250 təyyarə, 215 helikopter, 908 PUA, 233 qanadlı raket, 15 gəmi, 3 522 avtomobil texnikası və avtosistern, 120 xüsusi texnikadan ibarətdir.

***Murad***

# Ermənistan parlamentində dava düşdü

***Ermənistan parlamentinin sentyabrın 15-də keçirilən iclasında söyüş və təhqirlərlə müşayiət olunan dava-dalaş düşüb.***

Hakim "Mülki Müqavilə" partiyasının deputatları "Hayastan" müxalifət blokundan olan həmkarları, "Daşnaksütyun" Partiyasının üzvü Qeqam Manukyanın bəyanat və müraciətləri ilə razılaşmayıblar. Qeqam Manukyan baş nazir Nikol Paşinyanın əvvəllər səsləndirdiyi bir sıra tezislərin qəbuledilməzliyini vurğulayıb.



"Biz bir sənəd imzalamaq istəyirik, ona görə çoxları bizi tənqid etməyə, söyməyə və satqın adlandırmağa başlayacaq. Xalq bizi hakimiyyətdən uzaqlaşdırmaq qərarına gəlsə belə, biz yenə də razı qalacağıq və minnətdar olacağıq. Xüsusən də bunun nəticəsində 29,8 min kvadrat kilometr əraziyə malik Ermənistan Respublikası davamlı sülh və təhlükəsizlik tapacaqsa. Mən çox açıq deyirəm: bunu təmin edəcəkqərarı imzalayacağam. Və mənə sonradan nə olacağı maraqlı deyil. Mənə maraqlıdır ki, Ermənistan Respublikasının taleyi nə olacaq", - Paşinyan bir gün əvvəl parlamentin tribunasından bildirmişdi.

Bu bəyanata cavab olaraq minlərlə vətəndaş parlamentin yaxınlığında kortəbii aksiyaya başlayıb. Sonra Milli Təhlükəsizlik Xidməti medianı günahlandırıb. Bildirlib ki, media hökumət başçısının sözlərini təhrif edib.

G.Manukyanın çıxışı zamanı zaldakı qışqırıq və nida səsləri ona mane olub. Deputatlar Vaaqn Aleksanyan, Kristin Poqosyan və Hasmik Akopyan daha çox fərqləniblər. Erməni deputatlar bir-birlərini təhqir ediblər.

Hakim partiyadan olan parlament sədrinin müavini Akop Arşakyan məsələyə müdaxilə etmək məcburiyyətində qalıb. O, 30 dəqiqəlik fasilə elan edib.

# Avropa İttifaqı 1206 rusiyalıya qarşı sanksiyaların müddətini uzatdı



***Avropa İttifaqı rəsmi olaraq Ukraynanın ərazi bütövlüyünü, suverenliyini və müstəqilliyini pozduğuna və ya təhdid etdiyinə görə Rusiya Federasiyasının fiziki və hüquqi şəxslərinə qarşı sanksiyaların növbəti altı ay müddətinə, 2023-cü il martın 15-dək uzadıldığını elan edib.***

"Unikal" xəbər verir ki, bu barədə Avropa Şurasının saytında məlumat verilib.

"Aİ Şurası Ukraynanın ərazi bütövlüyünə, suverenliyinə və müstəqilliyinə xələl gətirən və ya təhdid edən şəxslərə qarşı məhdudlaşdırıcı tədbirlərin növbəti altı ay müddətinə, 2023-cü il martın 15-dək uzadılması barədə qərar qəbul edib. Mövcud məhdudlaşdırıcı tədbirlərə fiziki şəxslər üçün səyahət məhdudiyyətləri, aktivlərin dondurulması və siyahıya alınmış fiziki və hüquqi şəxslərə maliyyə və ya digər iqtisadi resursların verilməsinə qadağa daxildir. 1206 fiziki şəxs və 108 quruma qarşı sanksiyalar uzadılacaq", - məlumatda deyilir.

***Gülayə Mecid***

# Pakistanda daşqınlar daha 54 nəfərin həyatına son qoydu

***Pakistanda son sutka ərzində güclü musson yağışlarının səbəb olduğu daşqınlar nəticəsində azı 54 nəfər ölüb.***

"Unikal" xəbər verir ki, bu barədə "Sinxua" Pakistanın Təbii Fəlakətlərin İdarə Edilməsi üzrə Milli İdarəsinə (NDMA) istinadən məlumat yayıb. Təbii fəlakətlərdən ən çox zərər çəkən ölkənin cənubundakı Sind əyalətində isə 44 nəfər ölüb. Bəlucistanda (Pakistanın cənub-qərbində) - səkkiz nəfər ölüb, daha altı nəfər yaralanıb.

Ölənlər arasında 18 uşaq və 10 qadın var. Bundan başqa, daşqınlar 4453 evi dağıdıb, 24869 baş malqara tələf olub.

Bildirək ki, Pakistanda bu mövsümün musson yağışları və daşqınlar nəticəsində iyunun ortalarından bəri ölənlərin ümumi sayı 1481 nəfərə çatıb, 12748 nəfər zərər çəkib.

# Erməni əsgərin meyiti tapıldı

***Ermənistanın Sünik rayonunun Noravan kəndi yaxınlığındakı sərhəd müşahidə məntəqəsində baş vermiş yanğını söndürülən zaman əsgər meyiti tapılıb.***



"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın Fövqəladə Hallar Nazirliyi məlumat yayıb. Məlumata görə, Sünik Regional Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Noravan kəndi yaxınlığında yanğın baş verməsi barədə məlumat daxil olub.

Daxili İşlər Nazirliyinin rayon Fövqəladə Hallar və Təbii Sərvətlər Nazirliyinin Dövlət Yanğından Mühafizə Hissəsinin yanğından mühafizə hissəsinin bölməsi hadisə yerinə yollanıb. Ərazidə yanğınsöndürənlər və xilasedicilər tərəfindən əsgərin meyiti aşkarlanıb.

# Millimizin Avropa çempionatı üçün heyəti açıqlandı

***15-18 sentyabr tarixlərində Çexiyanın paytaxtı Praqa şəhərində gənclər arasında cüdo üzrə Avropa çempionatı keçiriləcək.***

"Qafqazinfo" xəbər verir ki, bu mötəbər beynəlxalq yarışa 39 ölkədən 349 idmançı qatılacaq.

Azərbaycan çempionatda 13 idmançı ilə təmsil olunacaq.

İdmançılarımız 15-17 sentyabr tarixlərində çempionatın fərdi yarışlarında, 18 sentyabr tarixində isə komanda yarışlarında iştirak edəcək.

Cüdoçularımıza performans direktor Mark van der Ham, baş məşqçi Elxan Məmmədov, məşqçilər Elxan Rəcəbli və Vüqar Hüseynov rəhbərlik edəcək.



**Oğlanlar**

-60 kq.
Turan Bayramov
Nizami İmranov
-73 kq.
Vüsal Qələndərzadə
-81 kq.
Ömər Rəcəbli
Elcan Hacıyev
-90 kq.
İsmayıl Zamanov
Vüqar Talıbov
-100 kq.
Ruslan Nəsirli
+100 kq.
Kənan Nəsibov

**Qızlar**

-48 kq.
Könül Əliyeva
-57 kq.
Səbinə Əliyeva
-63 kq.
Aytac Qardaşxanlı
-78 kq.
Nərmin Əmirli

# Konfrans Liqası: 16 oyunla davam

***Konfrans Liqasında qrup mərhələsinin II turunun oyunları keçiriləcək.***

Apasport.az saytının məlumatına görə, 8 qrupda 16 matç baş tutacaq.

Qardaş Türkiyə təmsilçiləri "Başakşəhər" və "Sivasspor" da növbəti sınağına çıxacaq. Sonuncular ÇFR-in qonağı olacaq. İstanbul klubu isə "Fiorentina"nı qəbul edəcək.

Qeyd edək ki, Konfrans Liqasında Azərbaycanı təmsil edən "Neftçi", "Zirə" və "Qəbələ" mübarizəni təsnifat mərhələlərində dayandırıb.

**A qrupu**

23:00. RFS - "Harts"
23:00. "Başakşəhər" - "Fiorentina"

**B qrupu**

23:00. "Styaua" - "Anderlext"
23:00. "Silkeborq" - "Vest Hem"

**C qrupu**

23:00. "Lex" - "Austriya"
23:00. "Hapoel" Beyer-Şeva - "Vilyarreal"

**D qrupu**

23:00. "Partizan" - "Nitsa"
23:00. "Köln" - "Slovaçko"

**E qrupu**

20:45. "Apollon" - "Dnepr"
20:45. "Alkmaar" - "Vaduts"

**F qrupu**

20:45. "Yurqorden" - "Molde"
20:45. "Gent" - "Şemrok Rovers"




**G qrupu**

20:45. "Slaviya" - "Balikani"
20:45. ÇFR - "Sivasspor"

**H qrupu**

20:45. "Jalgiris" - "Bazel"
20:45. "Pünik" - "Slovan"

# Azərbaycan cüdoçusu ilk görüşündə qələbə qazanıb

***Azərbaycan cüdoçusu Nizami İmranov Çexiyanın paytaxtı Praqada keçirilən gənclərin Avropa çempionatında qələbə qazanıb.***

60 kq çəki dərəcəsində çıxış edən idmançı 1/16 final mərhələsində Rikardu Pireslə (Portuqaliya) üz-üzə gəlib.

Qızıl xal bölümündə rəqibinə vazari xalı ilə qalib gələn



İmranov 1/8 finala yüksəlib. İdmançı növbəti raundda Tornike Maziaşvili (Gürcüstan) ilə görüşəcək. Qadınların yarışında 57 kq-dakı Səbinə Əliyeva 1/16 finalda Nino Tsiklauriyə (Gürcüstan) uduzub.

Qeyd edək ki, bu gün 60 kq-dakı Turan Bayramov və 8 kq-dakı Könül Əliyeva da mübarizəyə start verəcək.

# Xviça mövsümün rekorduna imza atdı



***"Napoli"nin futbolçusu Xviça Kvaratsxeliya Çempionlar Liqasında mövsümün rekorduna imza atıb.***

Qol.az "Opta"ya istinadən xəbər verir ki, 21 yaşlı yarımmüdafiəçi buna ötən gecə qrup mərhələsinin 2-ci turunda "Reyncers"lə görüşdə (0:3) nail olub. O, rəqibin qapısına 8 zərbə vurub. Belə nəticə ÇL-in 2022/23 mövsümü üçün rekorddur.

Qeyd edək ki, Xviça bu yay "Dinamo"dan (Gürcüstan) "Napoli"yə keçib.

Xatırladaq ki, Xviça Azərbaycan yığmasının sabiq futbolçusu Badri Kvaratsxeliyanın oğludur.

# Premyer Liqada turun hakimləri açıqlandı

***Misli Premyer Liqasında VII turun təyinatları açıqlanıb. Tururun görüşlərini idarə edəcək hakimlər bəlli olub.***



Sabah başlayacaq turun "Səbail" - "Neftçi" qarşılaşması Əliyar Ağayevə həvalə edilib. "Zirə" - "Qarabağ" matçında isə Rəşad Əhmədov fit çalacaq.

Qeyd edək ki, turun oyunları üç günü əhatə edəcək.

**Misli Premyer Liqası**
**VII tur**

16 sentyabr (cümə)
"Səbail" - "Neftçi"
Hakimlər: Əliyar Ağayev, Zeynal Zeynalov, Akif Əmirəli, Fərid Hacıyev
VAR: İnqilab Məmmədov
AVAR: Tural Qurbanov
Hakim-inspektor: Feyzulla Feyzullayev
"ASCO Arena", 20:30
"Sabah" - "Turan Tovuz"
Hakimlər: Rauf Cabarov, Cavanşir Yusifov, Kamran Bayramov, Kamranbəy Rəhimov
VAR: Cavid Cəlilov
AVAR: Eyyub İbrahimov
Hakim-inspektor: Zöhrab Qədiyev
"Bank Respublika Arena", 18:00
17 sentyabr (şənbə)
"Qəbələ" - "Sumqayıt"
Hakimlər: Elçin Məsiyev, Elşad Abdullayev, Rahil Ramazanov, Səbuhi Bayramov
Hakim-inspektor: Ömər Paşayev
Qəbələ şəhər stadionu, 19:00
18 sentyabr (bazar)
"Kəpəz" - "Şamaxı"
Hakimlər: Nicat İsmayıllı, Müslüm Əliyev, Rəhman İmami, Rəvan Həmzəzadə
Hakim-inspektor: Babək Quliyev
Qəbələ şəhər stadionu, 18:00
"Zirə" - "Qarabağ"
Hakimlər: Rəşad Əhmədov, Eyyub İbrahimov, Vüsal Məmmədov, Əli Əliyev
Hakim-inspektor: Anar Salmanov
Zirə İdman Kompleksinin stadionu, 20:30

# Oblakla Lemara yeni təklif



***"Atletiko" iki futbolçusu ilə müqaviləni uzadacaq.***

İspaniya klubu Yan Oblak və Toma Lemarı heyətində saxlamaqda maraqlıdır.

Onların hər ikisinə yeni anlaşma təklif olunacaq. Madridlilər Oblakla 2025-ci, Lemarla 2027-ci ilədək nəzərdə tutulan sözləşmə imzalamağı planlaşdırır.

Qeyd edək ki, Yan 2014-cü, Toma 2018-ci ildən "Atletiko"nun formasını geyinir.

# "Çelsi" 23 il sonra ilk dəfə...

***Çempionlar Liqasının 2022/23 mövsümü "Çelsi" üçün uğursuz başlayıb.***



Qol.az "Opta"ya istinadən xəbər verir ki, London təmsilçisi qrup mərhələsinin ilk 2 turunda qələbə qazana bilməyib. "Çelsi" əvvəlcə Zareb "Dinamo"suna uduzub (0:1), ötən gün isə "Zaltsburq"la heç-heçə edib (1:1). Nəticədə Premyer iqa təmsilçisi 23 il sonra ilk dəfə ÇL-dəki ilk 2 oyununda qalib gəlməyib.

Belə göstərici son dəfə 1999/2000 mövsümündə olub. Həmin vaxt əvvəlcə "Milan"la bərabərliyə razılaşan (0:0) zadəganlar növbəti dəfə "Herta"ya uduzublar (1:2).